# 525-ci qəzet

4 oktyabr 2012-ci il, cümə axşamı, №180 (3736). Qiyməti 20 qəpik

www.525.az


## Ramiz Mehdiyev:

# "Bu, ciddi təxribatdır"

### PREZİDENT ADMİNİSTRASİYASININ RƏHBƏRİ QALMAQALLI VİDEO GÖRÜNTÜLƏRDƏ ADININ ÇƏKİLMƏSİNƏ MÜNASİBƏT BİLDİRDİ

"Bu məsələ ilə bağlı artıq dövlət rəsmiləri tərəfindən qəti formada kifayət qədər münasibət bildirilib. Səsləndirilən fikirlərə yalnız onu əlavə edə bilərəm ki, bəhs olunan görüşdə mənim adımın təkidlə hallandırılması cəhdi kiminsə tərəfindən düşünülmüş ciddi təxribatdır. Məqsəd də ondan ibarətdir ki, hakimiyyət nümayəndələrini belə çirkin əməllərə bulayıb nüfuzdan salsınlar. Qeyd etməliyəm ki, belə cəhdlər müstəqillik dövründə dəfələrlə olub, lakin əsası olmadığı üçün baş tutmayıb və bu tipli təxribatçılar öz məqsədlərinə nail ola bilməyiblər. Hazırki olay da heç bir nəticə verməyəcək".



AzərTAc-ın verdiyi xəbərə görə, bunu Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev "ABU-nun sabiq rektoru Elşad Abdullayev və Milli Məclisin deputatı Gülər Əhmədovanın videogörüntüləri ilə bağlı müzakirələr bir neçə gündür ki, gündəmdən düşmür. Elşad Abdullayevin Gülər Əhmədova ilə söhbətində Sizin də adınız hallanır. Bununla bağlı nə deyə bilərsiniz" sualına cavablında bildirib.

R. Mehdiyev qeyd edib ki, Prezident Administrasiyasının nümayəndələrinin belə çirkin olaylarla heç bir əlaqəsi yoxdur, ola da bilməz: "Elşad Abdullayevin deputat seçilməməsi və onun rektoru olduğu Beynəlxalq Universitetin qanuni əsaslarla bağlanması faktı da fikirlərimi bir daha təsdiq edir. O ki qaldı ortada canfəşanlıq edən dələduzlara, Elşad Abdullayevin və onun kimilərin açdığı bazara — bu, onların öz problemləridir. Belə dələduzlar həmişə olub, bu gün də var. Onlar uçun ən inandırıcı yol, əlbəttə ki, vəzifəli insanların adını hallandırmaq və istifadə etməkdir. Beləəri gec-tez hər zaman ifşa olunub və qanun qarşısında məsuliyyətə cəlb ediliblər. Bundan sonra da kimliyindən asılı olmayaraq belələrinə heç bir güzəşt olmayacaq".

## MSK Gülər Əhmədovanın deputat mandatını ləğv etdi

Dünən Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. APA-nın məlumatına görə, Məzahir Pənahovun sədrliyi ilə keçirilən iclasda əvvəlcə MSK-nın 9 iyul 2012-ci il tarixli protokolu təsdiqlənib. Gündəlikdəki növbəti məsələ 34 saylı Xətai II Seçki Dairəsindən Milli Məclisə deputat seçilmiş Gülər Mikayıl qızı Əhmədovanın deputat mandatından məhrum edilməsidir.

Məsələ barədə MSK üzvü Arifə Muxtarova məlumat verib. Məsələ səsverməyə çıxarılıb, nəticədə G. Əhmədovanın deputat mandatı ləğv edilib.

Qeyd edək ki, G. Əhmədova deputat mandatından imtina barədə özü MM-ə müraciət edib. MM isə müraciəti baxılmaq üçün MSK-ya göndərib.

M.Pənahov jurnalistlərə deyib ki, Milli Məclisdə Gülər Əhmədovanın boş qalan yerinə 34 saylı Xətai ikinci seçki dairəsi üzrə seçkilərin keçirilib-keçirilməyəcəyi məlum deyil. M. Pənahov bildirib ki, boş qalan deputat yerinə seçki keçirilməsi zərurəti yaranarsa, MSK-nın iclasında bununla bağlı qərar verilə bilər.

## Almaniya səfiri də Qarabağın işğal olunduğunu təsdiqlədi

### "DAĞLIQ QARABAĞ VƏ YEDDİ ƏTRAF RAYONUN İŞĞAL ALTINDA OLMASI AZƏRBAYCANIN İNKİŞAFINA XƏLƏL GƏTİRİR"

"Dağlıq Qarabağ və yeddi ətraf rayonun işğal altında olması Azərbaycanın inkişafına xələl gətirir". APA-nın məlumatına görə, bu barədə Alman Birliyi Gününə həsr olunmuş tədbirdə jurnalistlərə Almaniyanın ölkəmizdəki səfiri Herbert Kvelle bildirib. Onun sözlərinə görə, Azərbaycanın dövlət siyasətinin əsas məqsədlərindən biri ərazi bütövlüyünün bərpası olaraq qalır. Alman-Azərbaycan münasibətlərinin mühüm hissəsi olan çoxsaylı siyasi səfərlər çərçivəsində, Almaniya Azərbaycanın münaqişəni sülh yolu ilə həllinə dair səylərini həmişə dəstəkləyib. "Mən həmçinin Azərbaycana öz torpaqlarını birləşdirmiş Almaniya kimi tezliklə ərazi bütövlüyünü bərpa etməyi arzulayıram", deyə səfir əlavə edib.

H.Kvelle Azərbaycan-Almaniya iqtisadi əlaqələrinə də toxunub: "Azərbaycan Almaniyanın ən vacib xam mal təchizatçıları arasında yeddinci yeri tutur və Almaniya 2011-ci ildə Azərbaycana 830 milyon avro həcmində mal ixrac edib. Yaxın zamanlarda təsis olunacaq Alman-Azərbaycan Ticarət Palatası iqtisadi mübadiləyə daha güclü təkan verəcək".

Səfir Almaniyanın Azərbaycanla enerji sahəsində əməkdaşlıqda çox maraqlı olduğunu vurğulayıb: "Almaniya "Şahdəniz" konsorsiumunun qərarını böyük maraqla gözləyir. Şübhəsiz, Almaniya bu bölgədən enerji almaqda maraqlıdır, çünki bu Almaniyanı Rusiyadan enerji asılılığından azad edərdi".

## "Ermənistanın Xankəndidə aeroport açmaq hüququ yoxdur"

### *ARİEL KOEN:* "AZƏRBAYCAN HÖKUMƏTİ BEYNƏLXALQ İNSTİTUTLARIN DİQQƏTİNİ BU MƏSƏLƏYƏ CƏLB ETMƏLİDİR"

Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ ərazisində — Xankəndidə aeroport açmaq hüququ yoxdur. Bunu "Trend-"ə müsahibəsində Rusiya, Avrasiya və beynəlxalq enerji siyasəti problemləri üzrə "İrs" Fondunun aparıcı eksperti Ariel Koen deyib.



"Beynəlxalq hüquqa uyğun olaraq bu, işğal olunmuş ərazidir və işğalçı hakimiyyətin orada aeroport açmaq hüququ yoxdur", — deyə o bildirib.

Koenin sözlərinə görə, aeroportun açılışı beynəlxalq hüquqa birbaşa zidd addımdır. O, habelə qeyd edib ki, Beynəlxalq Mülki Aviasiya Təşkilatının qaydalarına uyğun olaraq, bu hərəkətlər qanunsuzdur.

Ekspertin fikrincə, Ermənistanın bu addımı qeyri-konstruktivdir və Azərbaycan hökuməti beynəlxalq institutların diqqətini bu məsələyə cəlb etməlidir. Koenin sözlərinə görə, Ermənistanın barışmaz mövqeyi erməni xalqı üçün bumeranqa çevrilir və nəticə Ermənistandan mühacirətin yüksək səviyyəsi və ölkədə yaşayış səviyyəsinin aşağı olmasıdır.

Qeyd edək ki, bu günlərdə Ermənistan Xankəndidə aeroportun istismara verildiyini bəyan edib.

## "Turqut Özalın nəşinin əhəmiyyətli hissəsi çürüməyib"

Türkiyənin ədliyyə naziri Sədullah Ergin ölkənin 8-ci prezidenti Turqut Özalın məzarının açılması ilə bağlı açıqlama verib. APA-nın Türkiyə mətbuatına istinadən xəbərinə görə, nazir sabiq prezidentin nəşinin məhkəmə tibbi ekspertizası üçün əlverişli vəziyyətdə olduğunu bildirib. Onun sözlərinə görə, məzarın eksqumasiya olunmasına qərar verilərkən bir çoxları bunun araşdırma üçün faydalı olmayacağını açıqlayıb: "Onlar Özalın vəfatından 20 ilə qədər zaman keçməsinə əsaslanırdılar. Amma məhkəmə-tibb ekspertləri bu düşüncələrin əksinə olaraq, ekspertiza üçün çox önəmli olan məlumatlar əldə etdilər. Çünki nəşin əhəmiyyətli bir hissəsi çürüməyib, salamat qalıb".

## İvanişvili geri çəkildi

### "SAAKAŞVİLİNİN İSTEFASINI TƏLƏB ETMİRİK"

"Gürcü arzusu" koalisiyasının lideri Bidzina İvanişivili prezident Mixail Saakaşvilinin istefası ilə bağlı srağagün verdiyi açıqlamaya düzəliş edib. Modern.az Gürcüstanın apsni.ge saytına istinadən bildirir ki, İvanişvili Gürcüstan prezidentinin istefasını tələb etmədiklərini bəyan edib.

"Mən bəyan edirəm ki, biz heç bir siyasi ultimatum irəli sürmürük və prezidentlə birgə dövləti məsələləri dialoq və işgüzar mühitdə həll etməyə hazırıq"-deyə İvanişvili bəyan edilib.

Xatırladaq ki, gürcü müxalifətinin llideri dünənki mətbuat konfransında prezident Mixail Saakaşvilini istefa verməyə çağırıb və növbədənkənar prezident seçkilərinin keçirilməsini tələb edib.

## Ermənilər bu il atəşkəsi nə qədər pozub?

### İLİN ƏVVƏLİNDƏN 15 AZƏRBAYCAN HƏRBÇİSİ ŞƏHİD OLUB, 2 HƏRBÇİ ƏSİR GÖTÜRÜLÜB, 18 HƏRBÇİ VƏ 1 MÜLKİ ŞƏXS YARALANIB

Ermənistan Silahlı Qüvvələri sentyabr ayında cəbhə xəttində atəşkəs rejimini 154 dəfə pozub. APA-nın Azərbaycan Müdafiə Nazirliyinin təsdiq etdiyi məlumatlar əsasında apardığı monitorinqin nəticələrinə görə, ötən ay atəşkəsin pozulması nəticəsində Azərbaycan Ordusunun bir hərbçisi (Ağdam istiqamətində) yaralanıb. İyul ayında Naxçıvan istiqamətində atəşkəsin pozulması zamanı başından yaralanmış bir əsgəri isə dünyasını dəyişib. Sentyabrda Ağdam rayonu istiqamətində atəşkəs rejimi 44 dəfə, Füzuli istiqamətində 31 dəfə, Goranboy istiqamətində 22 dəfə, Xocavənd istiqamətində 20 dəfə, Tərtər istiqamətində 5 dəfə, Qazax istiqamətində 19 dəfə, Tovuz istiqamətində 8 dəfə, Gədəbəy istiqamətində 2, Daşkəsən istiqamətində 1, Cəbrayıl istiqamətində bir dəfə pozulub.

Avqust ayında isə cəbhədə və dövlət sərhədində atəşkəs rejimi 146 dəfə pozulub. Atəşkəsin pozulmasına görə ilk yerdə cəbhənin Ağdam (37 dəfə) və Füzuli rayonları (35 dəfə) gəlir. Bundan başqa, atəşkəs rejimi Goranboy istiqamətində 23, Qazax istiqamətində 18, Xocavənd istiqamətində 11, Tərtər istiqamətində 7, Cəbrayıl istiqamətində 5, Tovuz istiqamətində 4, Gədəbəy istiqamətində 3, Göygöl istiqamətində 3 dəfə pozulub.

Avqust ayında cəbhədə atəşkəsin pozulması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin iki hərbçisi şəhid olub, 2 hərbçisi isə yaralanıb. Ümumilikdə son 3 ay ərzində Ermənistan Silahlı Qüvvələrinin cəbhənin Ağdam və Füzuli rayonları istiqamətlərində daha çox aktivləşməsi müşahidə olunur.

Qeyd edək ki, 2012-ci ilin yanvar — sentyabr aylarında cəbhə xəttində atəşkəs rejimi Ermənistan Silahlı Qüvvələri tərəfindən 1150 dəfədən çox pozulub. Bundan başqa, iyun ayında bir həftə ərzində cəbhənin bütün istiqamətlərində intensiv döyüşlər gedib.

Aparılmış dəqiqləşdirmələrə görə, cari ilin yanvar-sentyabr aylarında cəbhə xəttində Azərbaycan Ordusunun iki hərbçisi ermənilər tərəfindən əsir götürülüb, 18 hərbçi, 1 mülki sakin atəşkəsin pozulması və mina partlayışları nəticəsində yaralanıb, 15 hərbçi isə şəhid olub.

## "Çudo Peçka"ya sərt qadağa

Azərbaycan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Binəqədi rayonu, C.Xəndan küçəsi,36 ünvanında fəaliyyət göstərən "Çudo Peçka" MMC-də və bu firmaya məxsus ticarət şəbəkələrində aparılmış araşdırmaların yekunu olaraq bir sıra məhsulun istehsalı və satışı qadağan edilib. Komitədən "APA-Economics"ə verilən məlumata görə, müəssisəyə məxsus istehsal sexlərində aşkar olunmuş nöqsanlar səbəbindən "Standartlaşdırma haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" və "Yeyinti məhsulları haqqında" qanunlara əsasən, bir sıra kulinariya məmulatları (ət və ciyər peraşkisi, mimoza, şuba salatı, ət qiyməsi ilə blinçik və s.), dönər və biskvitli kremli ballı xamalı tortun istehsalı və satışı qadağan edilib. Eyni zamanda, aşkar edilmiş nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati qaydada protokol tərtib edilib və cərimə tətbiq edilib.




## Robert Köçəryandan Vardan Oskanyana dəstək

Ermənistanın ikinci prezidenti Robert Köçəryan sabiq xarici işlər naziri, Çiçəklənən Ermənistan Partiyasının üzvü Vardan Oskanyanın deputat toxunulmazlığının ləğvinə etiraz bəyanatı yayıb.

"Media forum" saytı xəbər verir ki, Köçəryan Oskanyana qarşı ittihamları rədd edib: "Oskanyan ən uğurlu nazirlərdən və hakimiyyət sınağından keçən siyasi xadimlərdən biridir. O, təmiz insandır, son dərəcə ədalətlidir və bu, Ermənistanın siyasi həyatı üçün nadir haldır. Belə keyfiyyətləri və təcrübəsi olan adamları təhdid etmək yox, qorumaq lazımdır. Bu hadisənin mənasızlığı məni məyus edir. Baş verənlərə təəssüflənir və Oskanyanı dəstəkləyirəm".

Oskanyanın deputat toxunulmazlığı Ermənistan parlamentinin 2 oktyabr iclasında, baş prokurorun təqdimatı ilə ləğv olunub. Hüquq mühafizə orqanları 1998-2008-ci illərdə Ermənistanın xarici işlər naziri postunu tutmuş Oskanyanı "Sivilitas" xeyriyyə fondu üçün nəzərdə tutulmuş vəsaitləri mənimsəməkdə və qanunsuz yolla alınmış pulların yuyulmasında günahlandırır.

Köçəryan 1998-2008-ci illərdə Ermənistanın prezidenti olub. Oskanyanın üzv olduğu Çiçəklənən Ermənistan Partiyası Köçəryana yaxınlığı ilə tanınır. Bu partiya 2012-ci il may ayında keçirilmiş parlament seçkisindən sonra hakim koalisiyadan çıxıb və hökuməti tənqid edir.

## Bu gündən hava soyuyacaq

### BƏZİ YERLƏRDƏ QISAMÜDDƏTLİ YAĞIŞLAR YAĞACAQ

Oktyabrın 4-də Azərbaycanın bölgələrində bəzi yerlərdə şimşək çaxacaq, yağış yağacaq. Ayın 5-də də gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Bu barədə APA-ya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidroloqu Asif Verdiyev deyib. Onun sözlərinə görə, havanın temperaturu gündüz Aran rayonlarında 25-30, dağlıq rayonlarda 19-24 dərəcə təşkil edəcək. A. Verdiyev bildirib ki, Bakı və Abşeron yarımadasında oktyabrın 4 və 5-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir: "Şimal küləyi gündüz cənub küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gündüz saatlarında 22-28 dərəcə isti olacaq".

# Rusiya Qəbələ RLS-dən imtina etməyə hazırlaşır

## OBYEKTİN ŞƏXSİ HEYƏTİNİN TƏCİLİ ŞƏKİLDƏ ARMAVİRƏ APARILMASI PLANLAŞDIRILIR

"Rusiya Qəbələ RLS-dən imtina etməyi düşünür. Azərbaycanla aparılan danışıqlarda ortaq məxrəcə nail olmaq hələki mümkün olmur. Çox böyük ehtimalla Rusiya RLS-lə bağlı Azərbaycan tərəfinin irəli sürdüyü şərtlərə görə RLS-dən imtina edəcək". Modern.az bildirir ki, bu məlumatı "Nezavisimaya Qazeta" hərbi-diplomatik mənbələrə istinadən yayıb."Rusiya tərəfinin kompromis variant kimi irəli sürdüyü 2-3 il müddətində icarə xərclərinin əvvəlki həcmdə saxlanması ilə bağlı təklifi Bakı tərəfindən qəbul edilməyib"-deyə mənbə açıqlayıb.

Qeyd olunub ki, belə olan halda Rusiya Qəbələ RLS-in təcili şəkildə Armavirdə tikilmiş yeni RLS-ə köçürmək üçün tədbirlər görəcək.

APA-nın məlumatına görə, Azərbaycanın Qəbələ rayonunda yerləşən və 1985-ci ildə istifadəyə verilmiş "Daryal" tipli RLS SSRİ-nin Raketdən Müdafiə Kompleksinin 8 əsas stansiyasından biri olub. Stansiya 6000 km radiusdakı (İran, Türkiyə, Hindistan daxil olmaqla Yaxın Şərqi bütövlükdə, həmçinin Hind Okeanı və Avstraliya qitəsinin müəyyən bir qismini) ərazini nəzarətdə saxlamaq imkanlarına malikdir. Stansiya, həmçinin, bu ərazilərdən atılmış orta məsafəli, nüvə başlıqlı raketlərin ilk atış anından etibarən trayektoriyasını müəyyən edə bilir. Azərbaycan mülkiyyətində olan bu stansiyanı 2002-ci ildə imzalanmış müqaviləyə uyğun olaraq Rusiya ildə 7 milyon dollar icarə haqqı ödəməklə 2012-ci ilə kimi icarəyə verib. Azərbaycan hazırda RLS üçün



Rusiyadan 300 milyon dollar istəyir.

Rusiya ilə danışıqlar aparan Azərbaycan nümayəndə heyətinə baş nazirin birinci müavini Yaqub Eyyubov başçılıq edir. Heyətdə müdafiə naziri Səfər Əbiyev, maliyyə naziri Samir Şərifov, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər şəxslər təmsil olunurlar.

# Novruz Məmmədov: "Bu forumun əsas məqsədi xalqlar arasında əlaqələri daha da gücləndirməkdir"

Bakıda keçiriləcək II Beynəlxalq Humanitar Forumun əsas məqsədi xalqlar, millətlər, ölkələr arasında anlaşmanı, qarşılıqlı hörməti və əlaqələri daha da gücləndirmək, möhkəmləndirməkdir. Bunu "Trend"ə açıqlamasında Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov deyib.

"Bu Beynəlxalq Humanitar Forum Azərbaycan Prezidentinin, eləcə də Rusiya Federasiyası Prezidentinin təşəbbüsü və himayəsi altında artıq ikinci ildir keçirilir. Bu forumun təşkilatçısı Azərbaycandır. Azərbaycan regionun bir lideri kimi, ümumiyyətlə, bu tədbirlərdən çox keçirir, lakin bu tədbir artıq özünün miqyasına və əhatə dairəsinə görə beynəlxalq aləmdə nüfuz qazanıb", - deyə N.Məmmədov bildirib.

PA rəsmisinin sözlərinə görə, bu gün başlayacaq forumda iştirak edəcək qonaqlar artıq bir neçə gündür Azərbaycandadırlar: "Ölkəni gəziblər, bir çox mədəni, humanitar sahələrdə olan tədbirlərdə iştirak ediblər. Ümumiyyətlə, Azərbaycan son illərdə belə tədbirləri müxtəlif istiqamətlərdə və mövzularda çox tez-tez keçirir. Elə bu ilin əvvəlindən bir çox mötəbər, əhəmiyyətli tədbirlər keçirilib: Krans Montana Forumundan başlayaraq bugünkü foruma qədər. Azərbaycan regionun lideri olduğu üçün bu, tamamilə təbiidir və məntiqi qarşılanır".

N.Məmmədov bildirib ki, bu forumlarda Azərbaycan ilə bağlı bütün reallıqlar təkcə regionda deyil, dünyanın bütün ölkələri arasında öz yerini tapır: "Budəfəki Humanitar Forumda 70-dən çox ölkədən 600-dən artıq iştirakçı var. Burada 10-dan çox keçmiş prezident, 11 Nobel mükafatı laureatı iştirak edəcək. Elə yalnız bu rəqəmlərin özü hamı üçün aydın bir göstəricidir. Azərbaycan əslində dünyanın elə bir məkanında yerləşir ki, bir tərəfi şərq, bir tərəfi qərb, bir tərəfi şimal-cənub, bir tərəfi xristian, bir tərəfi islam aləmidir. Bu tərəfləri birləşdirən Azərbaycan, əslində bu gün müxtəlif qütbləri birləşdirən coğrafi, siyasi, mədəni, mənəvi və təhlükəsizlik körpüsüdür. Azərbaycan bu körpü missiyasını üzərinə götürərək çox böyük və müqəddəs bir vəzifəni həyata keçirir. Azərbaycan doğrudan da dediyim bu tərəflər arasında coğrafi, siyasi, iqtisadi, mədəni və mənəvi təhlükəsizliyin körpüsü rolunu oynayır".

PA rəsmisi hesab edir ki, bu forumda 600-dən çox iştirakçı bir tərəfdən tədbirdə olan aktual mövzular ətrafında geniş fikir mübadiləsi aparacaq, faydalı mövqelər ortaya qoyacaq, digər tərəfdən ölkələrinə Azərbaycan haqqında, gözəl Bakımız haqqında fikirlərini çatdıracaqlar: "Bu forum Azərbaycan üçün özünü dünya ölkələrinə tanıtmaq, ölkə haqqında reallıqları dünya ictimaiyyətinə çatdırmaq baxımından çox gözəl bir tədbirdir. Düşünürəm ki, bu forumun əhəmiyyəti Azərbaycan üçün çox mühümdür".

# AŞPA-da yeddi ildən sonra Rusiya ilə bağlı qətnamə qəbul olundu

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) payız sessiyasının bugünkü plenar iclası Rusiyaya həsr edilib. APA-nın Avropa Şurasındakı müxbirinin məlumatına görə, Monitorinq Komitəsi adından Rusiya üzrə həmməruzəçilər Georgi Frunda və Andreas Qrossun hazırladıqları "Rusiya Federasiyasının öhdəliklərinin yerinə yetirilməsi" adlı hesabatı ətrafında qızğın müzakirələr aparılıb.

Dünən qəbul olunmuş hesabatda AŞPA əsasən, Rusiya rəhbərliyini, xüsusilə prezident Putini ölkədəki sistemi demokratikləşdirməyə çağırıb. Assambleya Rusiyanın qısa zamandakı demokratik inkişafı baxımından hazırda əlverişli məqamda olduğunu və dəyişikliklər dinamikasındakı potensialının istifadəsi üçün konkret islahatlara ehtiyacı olduğunu bildirib. Buna misal olaraq, AŞPA son dövürdə ölkədə baş verən seçkilərdən sonra yüz minlərlə insanın küçələrə çıxaraq etiraz etmələrini, dəyişiklik istəyən vətəndaş cəmiyyətindəki oyanışı və hökumətin islahatlar çağırışlarını dinləməsi kimi məsələləri qeyd edib.

Assambleyanın fikrincə, Rusiyada 2011-ci ilin dekabrından bəri qəbul olunmuş qanun layihələri, eləcə də siyasi partiyalar haqqında qanunun qəbul olunması, Seçki Məcəlləsinə edilmiş dəyişikliklər, ölkə qubernatorlarının seçilmələrinin bərpa edilməsi kimi məsələlər bütövlükdə sistemin liberallaşdırılması istiqamətində siyasi iradəni nümayiş etdirən pozitiv təşəbbüs kimi qiymətləndirilməlidir.

Eyni zamanda, Rusiyada bu il qəbul olunmuş bir neçə qanunlar və qərarlar avropalı parlamentarların narahatlığına səbəb olub. Buna misal kimi, diffamasiyaya görə cəzalandırma, "İnternet haqqında" qanun, sərbəst toplaşma və qeyri-hökumət təşkilatları haqqında qanunlara edilən dəyişikliklər xüsusi olaraq qeyd edilib.

Assambleya hesabatında qeyd edib ki, bu kimi xoşagəlməz məsələlər Rusiyadakı siyasi vəziyyətin ziddiyyətlilik dərəcəsini göstərir.

AŞPA əsasən Rusiya hakimiyyətini tənqidçi müxalifətə və QHT-lərə qarşı edilən təyziq və təqiblərdən əl çəkməyə çağırıb. AŞPA Rusiyada pluralist demokratiyanın fəaliyyətinin yaxşılaşdırılması, hüququn aliliyinin və insan hüquqlarının gücləndirilməsi və digər öhdəliklərin yerinə yetirilməsi məqsədilə xüsusi tədbirlər planını həyata keçirməyə və əməkdaşlığa çağırıb. AŞPA bundan sonra da Rusiya üzrə monitorinqi davam etdirməyə də qərar verib və hesabat səsə qoyularaq qəbul olunub.

Qeyd edək ki, Rusiya üzrə qəbul olunmuş bu sənəd Rusiyanın 1996-cı ildə Avropa Şurasına üzv olmasından sonra sayca üçüncü qətnamədir. Rusiya üzrə sonuncü qətnamə yeddi il bundan əvvəl qəbul olunub.

# BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının 63-cü sessiyasında rəsmi Bakı da təmsil olunur

Cenevrədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin 63-cü sessiyasında Azərbaycan ilk dəfə olaraq bu mötəbər tədbirdə tamhüquqlu üzv kimi təmsil olunub.

Prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərlə bağlı yürütdüyü siyasət, onların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlar, bu sahədə fəaliyyət göstərən beynəlxalq qurumlarla aparılan səmərəli əməkdaşlıq nəticəsində Azərbaycan bu il BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) İcraiyyə Komitəsinə üzv qəbul edilib.

Bir həftə davam edəcək iclasda baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti iştirak edir. Nazirlər Kabinetindən verilən məlumata görə, sessiyanın ilk günü bir sıra ölkələrin (Kanada, Türkiyə, Əlcəzair, Cibuti, Moldova, Kosta-Rika, Efiopiya, Tanzaniya və s.) təmsilçiləri öz çıxışlarında Azərbaycanı BMT QAK-ın İcraiyyə Komitəsinin üzvləri sırasında görməkdən məmnun olduqlarını bildirərək bu münasibətlə Azərbaycan nümayəndə heyətini təbrik ediblər. Çıxışlara yekun vuran və öz münasibətini bildirən ali komissar Antonio Quterreş Azərbaycanın qaçqın və məcburi köçkünlərlə bağlı gördüyü işlərin vacibliyindən söz açıb: "Dünyada elə ölkələr var ki, qaçqın və məcburi köçkünlərə yardım etmir və onların acınacaqlı vəziyyətini dünyaya nümayiş etdirməklə siyasi məqsədlərə nail olmağa çalışırlar. Bundan fərqli olaraq, Azərbaycan hökuməti məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün nümunəvi tədbirlər həyata keçirir. BMT QAK bunu alqışlayır və münaqişə həll olunduqdan sonra könüllü qayıdışın mümkün olduğunu ifadə edir".

Tədbirin sonrakı günündə baş nazirin müavini ilə görüşən A.Quterreş çadır düşərgələrində və digər müvəqqəti sıx məskunlaşma yerlərində məcburi köçkünlərlə keçirdiyi görüşlər zamanı onların üzləşdikləri çoxsaylı problemlərlə yaxından tanış olduğunu və öz yurdlarından didərgin düşmüş bu insanların yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində Azərbaycan hökumətinin əldə etdiyi təqdirəlayiq nailiyyətlərin əyani şəkildə şahidi olduğunu bildirib. Ali komissar Azərbaycanın üzvlüyünün ölkəyə öz təcrübəsi ilə qlobal qaçqın ehtiyacları barədə məlumatlılığın artırılması istiqamətində konstruktiv töhfələr verməyə, dünyada olan qaçqın və məcburi köçkün problemlərinin aradan qaldırılması barədə qərarların qəbul edilməsində daha fəal iştirak etməsinə şərait yaradacağını vurğulayaraq Komitənin 63-cü sessiyasında yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunduğu üçün hökumətimizə minnətdarlığını ifadə edib. Ə.Həsənov Prezident İlham Əliyevin salamlarını ali komissara çatdırmaqdan şərəf duyduğunu bildirərək 1992-ci ildən Azərbaycanda fəaliyyət göstərən BMT QAK-la ölkəmiz arasında səmərəli əməkdaşlığın uğurla inkişaf etdiyini və bunun məcburi köçkünlər öz doğma yurdlarına qayıdandan sonra da davam edəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb.

BMT QAK-ın rəhbərliyinin Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə həmişə diqqətlə yanaşdığını vurğulayan Ə. Həsənov sabiq ali komissarlar xanım Sadako Oqata və cənab Ruud Lubbersin Azərbaycana səfərlərinə, çadır düşərgələrindəki məcburi köçkünlərin vəziyyəti ilə yaxından tanış olmalarına toxunaraq, İtaliyanın ENİ şirkəti tərəfindən qrant şəklində ayrılmış 2,2 milyon ABŞ dolları məbləğində vəsait hesabına BMT QAK-ın köməyi ilə məcburi köçkünlər üçün Göygöl və Beyləqan rayonlarında ilk sığınacaqların, sosial obyektlərin inşa edildiyini və Ağcabədi rayonu ərazisində Laçın qış yataqlarında 13 kilometr uzunluğunda su xəttinin çəkildiyini bildirib və ölkəmizin iqtisadi cəhətdən zəif olduğu dövrdə həyata keçirilən bu vacib humanitar aksiyaların heç vaxt yaddan çıxmayacağını deyib. Baş nazirin müavini görüşdə 2013-cü ildə BMT QAK-la birlikdə Bakıda qaçqınlar, məcburi köçkünlər, "qaçqın" statusu almaq niyyətində olan şəxslər və miqrasiya məsələlərinə həsr olunmuş beynəlxalq konfransın keçirilməsini təklif edib. Görüşün sonunda Quterreşə ingilis dilində xüsusi hazırlanmış "Vətən həsrəti... sönməyən ümidlər" sənədli filmi, ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti dövründə qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması və məşğulluqlarının artırılması ilə bağlı həyata keçirilmiş tədbirlərə həsr olunmuş məlumat kitabçaları təqdim edilib.

Xatırladaq ki, sessiya çərçivəsində Daimi Komitənin işi üzrə hesabat dinləniləcəyi, bu zaman Daimi Komitənin beynəlxalq himayə, proqramlar büdcəsi, idarəçilik, maliyyə nəzarəti və inzibati sahələrdəki işinin ardıcıl olaraq nəzərdən keçiriləcəyi gözlənilir.

Hər il olduğu kimi, bu dəfə də İcraiyyə Komitəsinin iclası günlərində Nansen Qaçqın Mükafatının təqdim olunma mərasimi də reallaşıb. Bu ilin mükafatına 2012-ci ildə Sülh və İnkişaf naminə Qalkaya Təhsil Mərkəzinin direktoru Hava Aden Mohammed (Puntlənd, Şimal-Şərqi Somali) uzun illər Somalidə olan qaçqınlar üçün gördüyü humanitar xidmətlərə görə layiq görülüb.

**S.MÜRVƏTQIZI**

# Macarıstan-Azərbaycan hökumətlərarası komissiyanın üçüncü iclası keçiriləcək

Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev Macarıstan baş naziri ofisinin dövlət katibi, Azərbaycan-Macarıstan Hökumətlərarası iqtisadi komissiyasının həmsədri Piter Siyyarto ilə görüşüb. APA-nın məlumatına görə, görüş zamanı iki ölkə arasındakı münasibətlərin hazırkı vəziyyəti və gələcək perspektivləri geniş müzakirə edilib. Son bir ay ərzində Azərbaycan və Macarıstan əleyhinə aparılan əsassız təbliğat kampaniyasının bu münasibətlərə hər hansı ciddi təsir göstərmədiyi xüsusi qeyd olunub. Eyni zamanda 8-9 oktyabr tarixlərində Macarıstan-Azərbaycan hökumətlərarası iqtisadi komissiyasının Budapeştdə keçiriləcək üçüncü iclası, habelə yüz nəfərdən çox azərbaycanlı və macar iş adamının qatılacağı biznes-forum haqqında ətraflı fikir mübadiləsi aparılıb. Görüşdə iki ölkə arasındakı iqtisadi münasibətlərlə bağlı yeni protokolun imzalanması nəzərdə tutulan bu iclasın yüksək səviyyədə keçirilməsi və gələcək əməkdaşlıq baxımından dönüş nöqtəsinə çevrilməsi üçün tərəflərin öz qüvvə və səylərini əsirgəməyəcəkləri vurğulanıb. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

# Avropa Məhkəməsi azərbaycanlı jurnalistin işi üzrə qərarını açıqlayıb

Avropa İnsan Haqları Məhkəməsi azərbaycanlı jurnalist Ramiz Nəcəflinin işi üzrə qərarını açıqlayıb. APA-nın məhkəmənin mətbuat xidmətinə istinadən yaydığı xəbərə görə, AİHM iddiaçıya vurulan mənəvi zərərlə əlaqədar ona 10 min avro ödənməsinə qərar verib. Bundan başqa, R. Nəcəfliyə məhkəməyə müraciətlə əlaqədar çəkdiyi xərclərin kompensasiyası qismində 3 min avro ödənməlidir.

1967-ci il təvəllüdlü Azərbaycan vətəndaşı, "Boz Qurd" qəzetinin redaktoru R. Nəcəfli 2005-ci il oktyabrın 9-da keçirilən nümayişin dağıdılması zamanı zorakılığa məruz qaldığını əsas gətirərək AİHM-ə müraciət edib. Jurnalist Avropa İnsan Haqları Konvensiyasının 3-cü (qeyri-insani rəftar və insan ləyaqətini alçaldan hərəkətlərin qadağan olunması) və 10-cu (söz azadlığı) maddələrində nəzərdə tutulan hüquqlarının pozulduğunu, polisin ona qarşı ifrat güc tətbiq etdiyini və sonradan bununla bağlı aparılan araşdırmanın qeyri-effektiv olduğunu bildirib.

# Türkiyənin yeni səfiri media rəhbərləri ilə ilk görüşünü keçirdi

Türkiyənin Azərbaycana yeni təyin olunmuş səfiri İsmayıl Alper Coşkun media rəhbərləri ilə birgə nahar edib. APA-nın xəbərinə görə, Azərbaycan media rəhbərlərini salamlayan səfir burda keçirdiyi görüşlər barədə məlumat verib. O bildirib ki, 23 il Türkiyə Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışıb: "İlk səfir vəzifəmə Azərbaycanda başlamağım da mənim üçün ayrıca bir qürurdur. Təəssüf ki, səfir kimi gəlişim həm də Azərbaycana ilk gəlişim oldu. Amma Türkiyə üçün Azərbaycan doğma bir yer olduğuna görə mən buranı yaxından təqib etmişəm, bu ölkə ilə bağlı zəngin bilgilərim var. Azərbaycanda doğma evimdə olduğum kimi rahatam, burda heç xarici ölkədə yaşadığımı hiss etmədim. Getdiyim hər yerdə, görüşdüyüm hər insanda doğmalıq, Türkiyəyə olan sevgini gördüm".

Səfir Azərbaycan və Türkiyə əlaqələrindən danışıb. O, Dağlıq Qarabağ problemi ilə bağlı Türkiyə dövlətinin iradəsini, bu mövqeyin dönməz olduğunu bir daha xatırladıb.

İ.A. Coşkun Azərbaycanın inkişafının hər bir türk kimi onu da məmnun etdiyini vurğulayıb: "Türkiyədən izlədiyim mənzərəni indi canlı görə bilirəm. Azərbaycanın inkişafı, Bakının, bölgələrin gözəlləşməsi məni sevindirir. Burda gəldiyim iki həftə müddətində çox yerlə tanış olmağa vaxtım çatmayıb. Amma yeni tikilən Şahdağ turizm bazasında olmuşam. Qarşıdakı vaxtlarda bu ölkənin hər yerini tanımağa çalışacağam".

Türkiyə səfirliyinin indiyə qədər gördüyü işləri davam etdirəcəyini bildirən diplomat iş adamları və media ilə yaxın əlaqələrini bundan sonra da davam etdirəcəyini deyib.

# Qış vaxtına nə vaxt keçirik?

Bu il oktyabrın 28-də Azərbaycan qış vaxtına keçəcək. Bu barədə məlumatı Lent.az-a Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli verib. Onun sözlərinə görə, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, həmin gün saat 05.00-da respublika ərazisində saatların əqrəbi 1 saat geri çəkilməklə yay vaxtı ləğv ediləcək.

Qeyd edək ki, Nazirlər Kabinetinin "Azərbaycan Respublikası ərazisində yay vaxtının tətbiq edilməsi haqqında" 17 mart 1997-ci il qərarına əsasən, hər il mart ayının son bazar günü əqrəblərin bir saat qabağa çəkilməsi ilə yay vaxtına keçilir. Hər il oktyabr ayının son bazar günü isə əqrəblərin bir saat geri çəkilməsi ilə yay vaxtı ləğv edilir.

Məlumat üçün bildirək ki, qış vaxtına keçid müsbət iqtisadi effekt verir. Belə ki, bu qanunun tətbiq olunduğu 110 ölkənin hər birində, o cümlədən Azərbaycanda elektrik enerjisinin illik istifadəsinə 2 faizədək qənaət olunur. Bu qənaət eyni zamanda ekologiyaya da müsbət təsir göstərir. Çünki elektrik enerjisinin istifadəsini azaltdıqca, ölkələr atmosferə atılan tullantıların miqdarını da azaltmış olur.

Avropa Birliyi ölkələri və Amerikanın əksər ştatları hər il bu üsuldan faydalanır. Lakin bəzi səbəblərdən Çin, Yaponiya, Cənubi Koreya, Rusiya və sair ölkələr saatlarının əqrəbini geri çəkməkdən imtina edib.

## Tehranda kütləvi etiraz aksiyası keçirildi

Tehranda dövlət əleyhinə kütləvi etiraz aksiyası keçirilib. APA-nın məlumatına görə, paytaxtın ən böyük bazarlarından biri olan Tehran Böyük Bazarında ticarətlə məşğul olan şəxslər piket keçiriblər. İranda iqtisadi vəziyyətin ağırlaşmasına, xarici valyutanın bahalaşmasına etiraz edən aksiya iştirakçıları "Xalqı aldadan dövlətə ölüm olsun!", "Xain Mahmud, bizi avara etdin!", "Mahmud həya et, siyasətdən get" kimi şüarlar da səsləndiriblər. Piketə müdaxilə edən polis gözyaşardıcı qazdan və rezin dəyənəklərdən istifadə edib. Həbs edilənlərin olub-olmaması ilə bağlı hələlik məlumat yoxdur.

Qeyd edək ki, İranda son bir ildə ABŞ dollarının qiyməti 3 dəfə bahalaşıb. Ötən il bir dollar 1200 tümənə dəyişdirilirdisə, hazırda qara bazarda bir dollar 4 min tümənə dəyişdirilir.

# Bu il cəbhədə 36 erməni hərbçi məhv edilib

## LAKİN BU İTKİLƏRİN DAHA ÇOX OLDUĞU EHTİMAL EDİLİR

Cari ilin 9 ayı ərzində Azərbaycan Ordusu tərəfindən cəbhə xəttində Ermənistan Ordusunun ən azı 36 hərbçisi məhv edilib. APA-nın Ermənistan KİV, internet saytları və sosial şəbəkələrdən dəqiqləşdirdiyi məlumatlara görə, bu dövrdə cəbhədə baş vermiş atışma və mina partlayışlarında ən azı 22 erməni əsgəri yaralanıb.

Cəbhədə ölən erməni əsgərlərinin 3-ü mina partlayışının qurbanı olub. Bu itkilərə qar uçqununa düşən, nizamnamədən kənar hallardan və ya xəstəlikdən ölən erməni hərbçiləri daxil deyil. Bundan başqa, Ermənistan Ordusu tərəfindən cəbhə xəttində istifadə olunan 5 hərbi texnika (1-i Xocavənd, 2-si Füzuli və 2-si Qazax istiqamətində) vurularaq sıradan çıxarılıb. Bu texnikalar personalın daşınması və ön xətdə mühəndis-istehkam işləri həyata keçirib.

Ermənilərin ən çox itkiləri iyun, aprel və fevral aylarında olub. İyun ayında Azərbaycan hərbçiləri tərəfindən Ermənistan Ordusunun 11, apreldə 9, fevralda isə 5 hərbçisi məhv edilib. İyun ayında cəbhədə Ermənistan Ordusunun 8, apreldə 4, fevralda isə 1 hərbçisi yaralanıb. Son iki ay ərzində isə cəbhədə Azərbaycan snayperləri tərəfindən öldürülmüş erməni hərbçilərinin sayı da 5 nəfər olub.

Ümumilikdə, Ermənistan Ordusunun itkilərinin daha çox olduğu ehtimal edilir. Qarabağda - yerli əhali arasından orduya çağırılanların həlak olması barədə məlumatlar demək olar ki, Ermənistan KİV-də yer almır. Məlumatların təhlili zamanı bəlli olub ki, Ermənistan Müdafiə Nazirliyi tərəfindən itkilər barədə məlumatlar bəzən bir həftə sonra təsdiqlənib.

Qeyd edək ki, 2012-ci ilin yanvar - sentyabr aylarında cəbhə xəttində atəşkəs rejimi Ermənistan Silahlı Qüvvələri tərəfindən 1150 dəfədən çox pozulub. Bundan başqa, iyun ayında bir həftə ərzində cəbhənin bütün istiqamətlərində intensiv döyüşlər gedib. Aparılmış dəqiqləşdirmələrə görə, cari ilin yanvar-sentyabr aylarında cəbhə xəttində Azərbaycan Ordusunun iki hərbçisi ermənilər tərəfindən əsir götürülüb, 18 hərbçi, 1 mülki sakin atəşkəsin pozulması və mina partlayışları nəticəsində yaralanıb, 15 hərbçi isə atəşkəsin pozulması və mina partlayışları nəticəsində şəhid olub.

# AŞPA-nın sessiyasında azərbaycanlı deputatlar erməni tərəfin iddialarına sərt cavab veriblər

Oktyabrın 1-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) payız sessiyasında yeni qaydaya uyğun olaraq sessiyada sərbəst dinləmələr keçirilmişdir.

Deputatlar çıxışlarında dünyanın üzləşdiyi maliyyə böhranından, işsizlərin sayının durmadan artmasının ölkələr üçün ciddi problemlər yaratmasından, iqtisadi böhranın demokratik dəyərlərə təsirindən danışmışlar.

Sessiyadakı çıxışlarında hər dəfə ölkəmizə qarşı qara yaxmağa çalışan Ermənistan nümayəndə heyətinin üzvü Armen Rüstəmyan yenə öz ənənəsinə sadiq qalaraq AŞPA-nı Dağlıq Qarabağın statusunu tezliklə müəyyənləşdirmək üçün addımlar atmağa çağırmışdır. O, azərbaycanlı zabit Ramil Səfərovun Macarıstandan Azərbaycana təhvil verilərək əfv olunmasının guya münaqişənin həllinə mənfi təsir göstərdiyini iddia etmişdir.



Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov çıxışında Ramil Səfərov məsələsinin Ermənistanın Azərbaycana qarşı apardığı təcavüz siyasətinin tərkib hissəsi olduğunu diqqətə çəkərək erməni tərəfi bu məsələdə siyasi möhtəkirlik etməməyə çağırıb: "Azərbaycan Ordusunun zabiti Ramil Səfərovla Ermənistan ordusunun həlak olmuş zabiti arasında baş vermiş hadisədə, əslində hər iki cavan qurbanlardır. Amansız müharibənin, çirkin siyasətlərin, iki ölkə arasında kənar qüvvələrin təşkil və idarə etdiyi, tamamlanmasına imkan vermədiyi münaqişənin qurbanları. Bu gənclərdən biri 9 il əvvəl həyatını itirib, digəri 9 ildir azadlıqdan məhrum olunub. 20 ildən artıq davam edən Ermənistan-Azərbaycan hərbi münaqişəsi zamanı isə yüzlərlə belə gənc həlak olub. Münaqişə bitmədikcə, Ermənistan işğal etdiyi 20 faiz Azərbaycan torpağından çıxmayınca, 1 milyona yaxın Azərbaycan insanı qaçqın və məcburi köçkün həyatı yaşadıqca, Ermənistan dövlət terrorizmi siyasəti ilə idarə edildikcə yeni-yeni faciələrin baş verməsi ehtimalı hər an olacaqdır. Avropa Şurasında, digər beynəlxalq təşkilatlarda "Ramil Səfərov işi" adlı müzakirələrin keçirilməsi vahid mərkəzdən təşkil olunan, maliyyələşdirilən, istiqamətləndirilən prosesdir. Pərdə arxasındakı rejissorları əslində nə erməni zabitinin ölümü, nə Azərbaycan zabitinin 9 il həbsdən sonra əfv edilməsi maraqlandırır. Onlar maraqlıdırlar ki, münaqişə səngiməsin, davam etsin, dərinləşsin. Çünki bundan milyardlar qazanırlar. Həmin hiyləgər bədxahlar imkan vermirlər ki, Azərbaycan ilə Ermənistan üz-üzə dayanıb, heç kəsin müdaxiləsi olmadan öz problemlərini özləri həll etsinlər".

Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov sessiyada çıxış edərək demişdir: "Biz Avropa Şurasına üzv olarkən, üzərimizə bir çox öhdəliklər götürdük. Bu öhdəliklərdən biri də Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll olunması öhdəliyi idi. Bu öhdəlik həm Azərbaycan, həm də Ermənistan tərəfindən qəbul edilib. Mənim sualım belədir: Nəyə görə 2001-ci ildən bu yana Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll olunması öhdəliyi heç vaxt müzakirə edilməyib? Biz digər öhdəliklərin yerinə yetirilməsi məsələsini — mətbuat azadlığı, insan haqları və s. müzakirə etmişik, amma Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələr aparmamışıq. AŞ insan haqlarının müdafiəsi təşkilatıdır. Biz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələrin aparılmasını istəyirik. Dağlıq Qarabağ üzrə Alt Komitə artıq mövcud deyildir. O, fəaliyyət göstərmir ki, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair müzakirələr təşkil edə bilək. Nəyə görə bu öhdəliyə diqqət yetirilmir? Nəyə görə bu öhdəlik yaddan çıxıb? Nə üçün bu məsələyə susqunluqla yanaşılır? Dağlıq Qarabağ münaqişəsi və ondan irəli gələn digər məsələlərə dair müzakirələr aparmaq lazımdır. Yəni məsələni bütövlükdə müzakirə etməklə həqiqətən nə baş verdiyini daha düzgün başa düşə bilərik. Yalnız bu formada hər iki xalq bir araya gələrək Dağlıq Qarabağ münaqişəsinin həlli yolunu müzakirə edə bilər. Bu, çox ağrılıdır. Düşünürəm ki, AŞ-nin bununla bağlı məsuliyyəti vardır. Susqunluq nümayiş etdirmək yalnız yeni zorakılıqlar və problemlərə yol açır və rəvac verir. Buna görə AŞ və onun üzvlərindən Dağlıq Qarabağ münaqişəsinin müzakirə olunmasını tələb edirəm".

Azərbaycan nümayəndə heyətinin üzvü Rövşən Rzayev çıxışında qeyd etmişdir ki, Dağlıq Qarabağ problemi münaqişə deyil, bu, Ermənistanın Azərbaycana hərbi təcavüzü, ərazi iddiasıdır. Bu günün ab-havasına uyğun çıxışlar zamanı gündəlikdə Ermənistan tərəfi Dağlıq Qarabağın nümayəndəsinin Fələstin, Kosova kimi AŞ PA-ya dəvət olunmasını və burada müvəqqəti yer almasını xahiş etmişdir. AŞPA sədri Jan-Klod Minyon bunu müsbət qarşılamış, Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin rəhbərləri ilə dialoqunda bu məsələni müzakirə edəcəyini bildirmişdir. R.Rzayev sayı 75 mindən yuxarı olan Dağlıq Qarabağın azərbaycanlı icmasının da AŞPA-da mütləq qaydada və bərabər şəkildə təmsil olunmasının vacibliyini diqqətə çatdırmışdır. Son zamanlar Dağlıq Qarabağın Azərbaycan icmasının erməni icması ilə dialoq axtarışında olduğunu xatırladan deputat demişdir ki, bu dialoq ilk dəfə 2011-ci ilin noyabrında Berlində keçirilməli idi. Amma erməni icması bu görüşdən imtina etmişdir. Bu məsələnin arxasında Ermənistan rəhbərliyi durduğuna görə bu günədək Dağlıq Qarabağın erməni icması ilə görüşmək mümkün olmamışdır. Mən AŞPA sədrindən, həm də avropalı həmkarlarımdan bu dialoqun baş tutmasına kömək göstərmələrini istərdim. Hər iki icmanın görüşü ATƏT-in Minsk qrupu çərçivəsində gedən danışıqlar prosesinə öz müsbət töhfəsini verə bilər.

Bu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi deyil, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzüdür. Buna beynəlxalq hüquq normaları və prinsipləri çərçivəsində qiymət verilməlidir. Münaqişə və təcavüz başqa-başqa amillərdir. Azərbaycan öz ərazisini tələb edir. Ermənistan isə Azərbaycana qarşı ərazi iddiaları ilə yaşayır.

Sessiya zamanı Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun AŞPA ünvanına səsləndirdiyi sərt ittihamlardan sonra qurumun sədri Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin rəhbərlərini görüşə dəvət etmişdir. Görüş baş tutmuşdur.

## *Rafael Cəbrayılov:* "BMT "fövqəlgüclər"in təsri altında hərəkət edir"

"Ermənistan-Azərbaycan münaqişəsinin həllinin uzanmasının əsas səbəblərindən biri heç şübhəsiz regionda nüfuz savaşının başa çatmaması ilə bağlıdır. Yəni, bölgəni təsir dairəsinə daxil etmək istəyən "supergüclər" regiondakı münaqişələrdən təzyiq "rıçaq"ları kimi istifadə etməyə çalışırlar".Bunu mətbuata geniş açıqlamasında millət vəkili Rafael Cəbrayılov dilə gətirib. Onun qeyd etdiyinə görə, Dağlıq Qarabağ münaqişənin həllində fəal rol oynamaq şansı isə regionda əlahiddə nüfuz sahibi olmaq iddiasının gerçəkləşməsi deməkdir. Millət vəkili bildirib ki, münaqişənin təminatlı həlli istənilən halda ABŞ, Rusiya və Fransa "üçlüyü"-nün qarşılıqlı güzəştindən əhəmiyyətli dərəcədə asılıdır: "Ermənistan-Azərbaycan münaqişəsinin həlli, ilk növbədə, bu güclər arasında konsensusun əldə olunmasından, nüfuz savaşının başa çatmasından asılıdır. Rusiya son illərdə müəyyən fəallıq göstərərək belə bir şans əldə etməyə çalışsa da, son nəticədə regiondakı "for-post"unun üzərinə getməyə özündə cəsarət tapmadı. Daha dəqiqi, münaqişənin həllinin Moskvaya sərfəli görünmədiyini açıq etiraf etməyin vaxtı çatıb". Millət vəkilinin eyni zamanda xatırlatdığına görə, BMT Nizamnaməsinin 25-ci maddəsində göstərilir ki, Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarların yerinə yetirilməsi icbari xarakter daşıyır və bu təşkilatın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4 qətnaməsində erməni hərbi birləşmələrinin qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması məsələsi əksini tapıb: "Amma buna baxmayaraq, təşkilat Azərbaycanla bağlı qətnamələrini 20 ildir ki, icra etmir. Bunun səbəblərindən biri də odur ki, təşkilatın beş daimi üzvü hərbi gücün tətbiqi ilə bağlı qərar qəbul edərkən tamamilə öz geosiyasi maraqlarından çıxış edir.Burada, əsasən, Çin və Rusiyanın maraqları ABŞ, Böyük Britaniya və Fransa ilə tez-tez toqquşur. Bir daimi üzvün veto tətbiq etməsi isə konkret qərarın qəbuluna mane olur. Belə olan təqdirdə, təşkilat iflic vəziyyətinə düşür. Bu, BMT-nin, əslində, bir neçə aparıcı dövlətlərin nüfuz dairəsində olduğunu, daha dəqiqi, "fövqəlgüclər"in təsiri altında hərəkət etdiyini göstərir. Məhz bu vəziyyəti nəzərə alan rəsmi Bakı BMT-də yuxarıda müəyyən islahatların aparılmasının təşəbbüskarı kimi çıxış edir".



**VAHAB**

## Elmar Məmmədyarov Finlandiya səfirini qəbul edib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Finlandiyanın Azərbaycandakı səfiri Petri Salonu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib. XİN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, nazir Finlandiya səfirinin ölkəmizdə fəaliyyətini yüksək qiymətləndirib, onun fəaliyyətinin iki ölkə arasındakı münasibətlərin inkişafına və genişlənməsinə töhfə verdiyini deyib. Görüşdə həmçinin Azərbaycanla Finlandiya arasında ikitərəfli əlaqələrin mövcud vəziyyəti məmnunluqla qeyd olunub və əməkdaşlığın genişlənməsi üçün potensialın olduğu vurğulanıb.

Nazir E.Məmmədyarov Finlandiya səfirinə gələcək fəaliyyətində uğurlar arzulayıb. Səfir Petri Salo ölkəmizdən xoş təəssüratlarla ayrıldığını qeyd edib və ölkəsinin Azərbaycanla əməkdaşlığın genişləndirməkdə maraqlı olduğunu vurğulayıb.

## Qırğızıstanın keçmiş prezidenti Azərbaycan Diplomatik Akademiyasında olub

Qırğızıstanın keçmiş prezidenti Roza Otunbayeva Azərbaycan Diplomatik Akademiyasının (ADA) qonağı olub. ADA-dan qəzetimizə verilən məlumata görə, ADA-nın rektoru, xarici işlər nazirinin müavini Hafiz Paşayev qonağa Akademiyanın yaranma tarixi, fəaliyyəti, beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib: "Prezident İlham Əliyevin 2006-cı il 6 mart tarixli Fərmanı ilə təsis edilən ADA yarandığı gündən öz fəaliyyətində xüsusi ixtisaslı diplomat kadrların hazırlanmasını və beynəlxalq münasibətlər sahəsində elmi tədqiqatların aparılmasını əsas prioritet kimi götürüb. Fəaliyyətə başladığı 2007-ci ildən bəri Akademiyada 400 gənc diplomat hazırlanıb. 2009-cu ildən bu təhsil ocağında tədris proqramının genişləndirilməsinə və "Beynəlxalq əlaqələr və diplomatiya" sahəsində magistratura proqramının reallaşdırılmasına başlanılıb. Ötən ildən isə "Biznesin idarə edilməsi və beynəlxalq münasibətlər" üzrə bakalavr ixtisasları yaradılıb. Bu ixtisaslar üzrə hazırda 250 tələbə təhsil alır. Akademiyanın 19 xarici ölkədən 35 tələbəsi də var. Prezident İlham Əliyevin Sərəncamı əsasında 2009-cu ildən təhsil ocağının yeni tədris kompleksinin tikintisinə başlanılıb. Yeni tədris kompleksi ABŞ-ın EYP şirkətinin layihəsi əsasında xüsusi dizaynla yüksək standartlar səviyyəsində tikilib. Bu tədris ocağı dünyanın tanınmış universitetlərinin təcrübəsinə əsaslanaraq ən son texnoloji nailiyyətlərlə inşa olunub. Burada dörd ayrı bina — biznes və beynəlxalq münasibətlər institutları, tələbə mərkəzi və kitabxana fəaliyyət göstərir. Azərbaycanda ilk dəfə olaraq bu tədris kompleksinin havalandırma sistemi geotermal enerji ilə həyata keçirilir". Sonra Roza Otunbayeva Akademiyada yaradılan şəraitlə tanış olub. Qonağa məlumat verilib ki, Akademiyada tədris ingilis dilində aparıldığından burada xarici ölkələrin tanınmış universitetlərindən 15 professor da daxil olmaqla, 35 pedaqoq çalışır: "Azərbaycanda ən böyük xarici dilli kitabxanaya malik olan Akademiyada ingilis dilində 120 min kitab vardır".

Akademiya ilə tanışlıqdan zəngin təəssüratla ayrılan R. Otunbayeva ADA-nın yaradılmasını, buradakı şəraiti yüksək qiymətləndirib: "Xarici siyasət sahəsində uğurların əldə olunmasında, ilk növbədə, diplomatiyanın xüsusi rolu var. İnanırıq ki, bu Akademiya Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi istiqamətində xüsusi rol oynayan mərkəzlərdən biri olacaq".

**S.MÜRVƏTQIZI**

## *Emin Həsənli:* "Ali məktəblərdə hərbi dərslər keçirilsin"

### "GƏNCLƏRİMİZİN FÖVQƏLADƏ VƏZİYYƏTLƏRƏ HAZIRLIĞI DA DİQQƏT MƏRKƏZİNDƏ OLMALIDIR"

Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin (TOHGMİB)sədri Emin Həsənli ali məktəblərdə hərbi dərslərin keçirilməsini təklif edib. Emin Həsənli Lent.az-a açıqlamasında deyib ki, hazırda atəşkəs rejimidir, ancaq bu nə sülh, nə müharibədir, düşmən də tez-tez atəşkəs rejimini pozur.



Azərbaycanın həssas regionda yerləşdiyini qeyd edən TOHGMİB bildirib ki, gənclərimizin hərbi hazırlığı yüksək səviyyədə olmalıdır. Onun sözlərinə görə, sovetlər dönəmi ali məktəblərdə hərbi kafedralar olub, sonradan bu kafedralar ləğv edilib. Ali təhsilli gənclər Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində kurs keçdikdən sonra zabit kimi də xidmət edə bilər: "Söhbət ali məktəblərdə hərbi kafedraların bərpa edilməsindən getmir. Ali məktəblərdə hərbi dərslər keçirilsə, yaxşı olar. Həm də gənclərimizin fövqəladə vəziyyətlərə hazırlığı da diqqət mərkəzində olmalıdır. Zəlzələ, yanğın zamanı nə etmək lazımdır, gənclər bunları bilməlidirlər. Mülki və fövqəladə hazırlıq birgə, hərbi hazırlıq isə ayrıca dərs kimi keçirilməlidir. Keçmişdə ali məktəblərdə hərbi kafedralar fəaliyyət göstərən zaman tələbələr hərbi hissələrdə təcrübədə olurdular. İndi yaxşı olardı ki, ildə bir həftə, on gün də olsa, hərbi hissələrlə əməkdaşlıq olsun, təlim mərkəzlərindən istifadə edilsin".

Emin Həsənli hesab edir ki, ali məktəblərdə hərbi dərslərin keçirilməsi həm tələbələrdə həm orduya marağı artıracaq, həm məlumatlı olacaq, həm də bu dərslər onların gələcəkdə hərbi xidmətə hazırlığını təmin edəcək. O, orta məktəblərin 9-11 siniflərdə çağırışa qədər gənclərin hərbi hazırlığı ilə bağlı işi də sürətləndirməyi vacib sayıb: "Həm orta məktəbdə, həm də ali məktəblərdə bu addımlar atılmalıdır ki, sabah gənclərimiz hərbi qulluq zamanı tam hazırlıqlı olsunlar. Əsgərliyə gedənə qədər həm mənəvi, həm psixoloji cəhətdən hazırlıqlı, ümumi ibtidai hərbi biliklərə yiyələnmiş olsunlar".

TOHGMİB sədri vurğulayıb ki, gələcəkdə peşəkar ordu quruculuğuna keçsək, alternativ xidmət məsələsi, o cümlədən magistrlərə güzəşt məsələsi öz həllini tapacaq. Bir müddətdən sonra hərbi xidmətlə bağlı yaş limiti də endirilə bilər: "Yaxın vaxtlarda bu məsələlər həllini tapacaq. Amma bütün bunlara baxmayaraq, hər bir gəncimizin hərbi xidmətə hazırlanması məsələsi gündəmdə olmalıdır. Biz sabah peşəkar orduya keçsək də, ehtiyatda olan gənclərimiz hazırlıqlı olmalıdırlar. Bu baxımdan universitetlərdə hərbi dərslərin keçirilməsinə hazırlıq sürətlənməlidir. Eyni zamanda orta məktəblərdə də hərbi hazırlıq dərsləri yüksək səviyyədə olmalıdır. Bütün bunlara görə də həmin dərsləri deyəcək müəllimlər xüsusi kurslardan keçirilməlidirlər. Yaxşı olar ki, bu kursları Müdafiə Nazirliyi və Təhsil Nazirliyi birgə təşkil etsin, müəllimlər hərbi təlim-tədris mərkəzlərində, hərbi məktəblərdə bu kursları keçsinlər. Ordu məsələsi tək Müdafiə Nazirliyinin, Silahlı Qüvvələrin işi deyil. Uşaq bağçası, məktəb, ali məktəb dönəmi diqqət mərkəzində olmalıdır. Bu işdə Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, QHT-lər və mətbuatın üzərinə çox böyük yük düşür. Gənc hərbi qulluğa qədər orduya tam hazırlanmalı, ordu da ictimaiyyətin diqqət və qayğısını görməlidir. Gənclər ordudan tərxis edildikdən sonra da hazırlıq davam etməlidir ki, müharibə başlayanda hazırlıqlı olsunlar".

İndiyə qədər də bu sahədə islahatların aparıldığını qeyd edən Emin Həsənlinin sözlərinə görə, Müdafiə Nazirliyi tərəfindən təlim-tədris mərkəzlərinin yaradılması, müasir texnologiyalardan istifadə edilməsi, hərbi təhsil müəssisələrində kadr potensialının hazırlanması, eyni zamanda ictimaiyyətlə əlaqənin get-gedə sıxlaşması göz önündədir: "Ali məktəblərdə hərbi dərslərin keçirilməsi bu yöndə işləri sürətləndirəcək".

# "Ermənilərin Xankəndidə hava limanı açması Azərbaycanın qıcıqlandırılmasına yönəlmiş addımdır"

"Azərbaycan tərəfi suverən hüquqlarından istifadə edərək ermənilərin işğal etdikləri torpaqlarımızda istismara verdikləri Xankəndi aeroportunda uçuşların rəsmiləşdirilməsinin qarşısını tamamilə ala bilər". Bu barədə mətbuatda millət vəkili, politoloq Rasim Musabəyov çıxış edib. Onun sözlərinə görə, bunlar sadəcə olaraq Azərbaycan dövlətinin qıcıqlandırılmasına yönəlmiş addımdır: "Hesab edirəm ki, Azərbaycan Ermənistan tərəfindən havaya qaldırılan mülki təyyarələrin heç birini vurmayacaq. Bu dünya təcrübəsində də qəbul olunmuş prosesdir. Ermənilər təyyarələrdən öncə sınaq uçuşları təşkil etmək fikrindədirlər. Azərbaycan dövləti burada yalnız texniki maneələrlə uçuşların havaya qalxmasına əngəl törədə bilər".



Millət vəkilinin fikrincə, onların əsas istəyi bu kimi məsələlərə dünyanın qarışmasını təmin etməkdir: "İnanıram ki, biz buna yol verməyəcəyik. Türkiyənin özü də açıq şəkildə bəyan edib ki, münaqişə həll edilmədən Ermənistanla sərhədlər açıla bilməz. Bu, Azərbaycanın tutduğu mövqeyə dəstəkdir. Hazırda 100 minlərlə erməni Ermənistanı tərk edib. Tək Dağlıq Qarabağın özündə bu qədər əhali qalmayıb. Hər il bunlar bu qədər insan itirəcəklərsə çox qısa bir zaman kəsiyində hansı aqibətlə qarşılaşacaqlarını dərk edəcəklər".

R.Musabəyov bildirib ki, həmin aeroport heç də mülki əhali və əlaqələr üçün deyil: "Məsafə olduqca qısadır və beləcə reyslər olduqca sərfəlidir. Heç də uzağa getmək lazım deyil. İrəvanla Tiflis arasında məsafə təxminən eynidir. Ancaq bu vaxta kimi İrəvanla Tiflis arasında heç bir təyyarə uçmur. Halbuki ora gedən və gələn insanların sayı xeyli çoxdur. Bununla belə, həmin uçuşlar iqtisadi cəhətdən də səmərəli deyil. Misal üçün təyyarə havaya qalxan kimi dərhal yerə enməli olur. Burada əsas məqsəd ondan ibarətdir ki, hər hansı hərbi münaqişə baş versə, döyüş üçün lazım olan hərbi texnika tezliklə çatdırılsın".

**PƏRVANƏ**

# Dünyanın ən yaxşı aeroportları müəyyənləşdi

Brüssel (Belçika), Nayrobi (Keniya), Dallas (ABŞ), Yekaterinburq (Rusiya) və Sinqapurun (Sinqapur) hava limanları Abu-Dabidə (BƏƏ) keçirilən «World Routes Awards 2012» mükafatlandırma mərasimində ən yaxşı aeroportlar adına layiq görülüb. «APA-ECONOMICS»in məlumatına görə, 1995-ci ildən keçirilən «World Routes Awards» mükafatının unikallığı ondan ibarətdir ki, qaliblər aeroportlarda yerüstü xidmətləri qiymətləndirən aviaşirkətlər tərəfindən seçilir.

Nominantlar dünyanın 5 regionundan seçilir — Avropa, Afrika, Şimali Amerika, Cənubi Amerika və MDB (bu nominasiya ilk dəfə olaraq 2012-ci ildə yaradılıb).

MDB məkanında ən yaxşı aeroport adına Yekaterinburqun Koltsovo hava limanı layiq görülüb. Bu hava limanı Moskvanın Şeremetyevo, Novosibirskin Tolmaçevo və Sankt-Peterburqun Pulkovo aeroportlarını geridə qoyaraq birinci yerdə qərarlaşıb.

Qeyd edək ki, ənənəvi olaraq nominantlar arasında yalnız iri hava limanları (Afrika və MDB istisna olmaqla) yer alıb. Lakin bu il ilk dəfə idi ki, ildə 4 mlndan az sərnişinə xidmət göstərən aeroportlar da müsabiqəyə qatılıb. Bu nominasiyada Avstraliyanın Darvin aeroportu qalib gəlib.

# Bakıda Almaniyanın milli bayramı qeyd olunub

Almaniyanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı — Alman Birliyi günü münasibətilə "Park İNN" mehmanxanasında rəsmi ziyafət təşkil edib. Almaniya Silahlı Qüvvələrinin orkestrinin ifasında Azərbaycanın və Almaniyanın dövlət himnləri səsləndirildikdən sonra iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 20 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Herbert Kvelle qonaqları salamlayaraq bu gün iki ölkə arasında əlaqələr dostluq zəminində inkişaf etdiyini deyib. Ölkələrimiz arasında əlaqələrin genişlənməsindən məmnunluğunu bildirən diplomat Almaniyanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu xatırladıb.Mərasimdə çıxış edən iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov əlamətdar gün münasibətilə alman xalqını Azərbaycan Prezidenti adından təbrik edib. Azərbaycan ilə Almaniya arasında siyasi, iqtisadi, idman və mədəni sahələrdə əlaqələrin əhəmiyyətini vurğulayan nazir müavini ikitərəfli əlaqələrin son illər intensiv inkişaf etdiyini diqqətə çatdırıb. Azərbaycanda yüzdən artıq alman şirkətin fəaliyyət göstərdiyini nəzərə çatdıran N.Səfərov iki dövlət arasında hüquq-müqavilə bazasının formalaşdığını xüsusi qeyd edib. O, Azərbaycan ilə Almaniya arasında 70-ə yaxın sənəd, iqtisadi sahədə isə 30 müqavilənin imzalandığını tədbir iştirakçılarının nəzərinə çatdırıb. Nazir müavini ölkələrimiz arasında ticarət dövriyyəsinin ötən ilə nisbətən artdığını da vurğulayıb.

**S.MÜRVƏTQIZI**

# Bülent Aras: "Ermənistan paytaxtının mərkəzindəki vəziyyət Bakının ucqarlarında olan vəziyyətdən qat-qat pisdir"



"Azərbaycanla Türkiyə arasında münasibətlər çox yüksək səviyyədədir. Hesab edirəm ki, münasibətlərin daha da inkişafı üçün böyük potensialın olduğunu görürəm". Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Bülent Aras müsahibəsində deyib. O bildirib ki, Türkiyə ilə Ermənistan arasında münasibətlərin yaxşılaşdırılmasına dair bir neçə il əvvəl meydana çıxan və imzalanan Sürix protokollarından sonra münasibətlərdə bir qədər böhran yarandı: "Lakin şükürlər olsun ki, hər şey artıq geridə qalıb. Etiraf etmək lazımdır ki, bu məsələdə səhvlər və əvvəlcədən nəzərə alınmayan məqamlar oldu, amma ölkələrimiz böhranı dəf etməyə və strateji və müttəfiqlik münasibətlərini yenidən davam etdirməyə nail oldular. Prezident İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Azərbaycan-Türkiyə Strateji Əməkdaşlıq Şurasının bu yaxında keçirilən müşavirəsi də ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyəsini bir daha bariz şəkildə sübuta yetirmiş oldu". Dağlıq Qarabağ münaqişəsinə toxunan B.Aras deyib ki, münaqişə olduqca mürəkkəbdir və Türkiyənin Cənubi Qafqazdakı əsas problemlərindən biridir: "Türkiyə BMT, NATO, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar çərçivəsində bu məsələni dəfələrlə qaldırıb və bundan sonra da gələcəkdə bu istiqamətdə iş aparacaq. Türkiyə bölgənin digər ölkələri olan Rusiya və İranla da müvafiq istiqamətdə iş aparır. ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ prosesinin həll olunması üçün birbaşa şəkildə işə cəlb edilməsinə baxmayaraq, Türkiyə prezidenti Abdullah Gül və Baş nazir Rəcəb Tayyib Ərdoğan bu qurumun fəaliyyətini dəfələrlə tənqid ediblər. Biz təəssüflər olsun ki, sözügedən münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupundan tutarlı addımlar görməmişik. Azərbaycana səfərimiz zamanı biz doğma yurd-yuvalarından didərgin salınmış azərbaycanlılarla görüşdük. Onlar öz torpaqlarına qayıtmaq ümidi ilə yaşayırlar, bu ümidi öldürmək olmaz. Bu insanlar öz qədim ərazilərinə qayıtmalıdırlar". O deyib ki, Türkiyə bir qardaş ölkə kimi hər zaman Azərbaycana dəstək göstərmək niyyətindədir: "Bundan başqa, Türkiyə ilə Azərbaycan arasında hərbi sahədə əməkdaşlığa dair də sazişlər imzalanmışdır. Ən yaxşı variant münaqişənin sülh yolu ilə həll edilməsidir. Düşünürəm ki, beynəlxalq ictimaiyyət Ermənistanı işğal etdiyi Azərbaycan torpaqlarını geri qaytarmağa vadar etməlidir. Dağlıq Qarabağ münaqişəsinin həllindən bütün Qafqazın inkişafı asılıdır. Biz hamımız Azərbaycanın hansı böyük uğurlara imza atdığını görürük. Bu münaqişə olmasaydı, Azərbaycan da, bölgə də daha sürətli addımlarla inkişaf edərdi. Ermənistanın acınacaqlı iqtisadi vəziyyəti insanların mənəvi durumuna da çox pis təsir göstərməkdədir. İrəvanla Bakını müqayisə etsək görərik ki, Ermənistan paytaxtının mərkəzindəki vəziyyət Bakının ucqarlarında olan vəziyyətdən qat-qat pisdir. Buna görə də, hesab edirəm ki, ermənilər bütün bunlardan özləri üçün nəticə çıxarmalı və onlara heç bir faydası olmayan siyasətdən əl çəkməlidirlər". Ermənistanın saxta soyqırım iddialarına da toxunan SAM rəhbəri deyib ki, Birinci Dünya müharibəsi illərində Osmanlı imperiyasında təkcə ermənilər deyil, digər millətlərin nümayəndələri, o cümlədən türklər də zərər çəkiblər: "Biz hesab edirik ki, keçmişi tarixçilərin öhdəsinə buraxmaq və reallıqla yaşamaq lazımdır. Bəli, biz bilirik ki, 2015-ci ildə qondarma erməni soyqırımının yüz illiyi ilə əlaqədar erməni lobbisi bu məsələdən fəal şəkildə manipulyasiya etmək və Türkiyəyə təzyiq göstərmək niyyətindədir.

Lakin mən bu manipulyasiyalarda heç bir perspektiv görmürəm, çünki heç kim Ermənistana görə Türkiyə ilə münasibətlərini korlamaq istəməz. Əlbəttə ki, ermənilər bizim üçün bir sıra problemlər yaradacaqlar, lakin heç bir nəticə əldə edə bilməyəcəklər. Düşünürəm ki, bu səbəbdən Türkiyə və Azərbaycan öz gücünü səfərbər etməli və erməni lobbisinə qarşı müqavimət üzrə ümumi strategiya hazırlamalıdır. Bu məsələdə həmçinin bizim ölkələrin diasporları da fəal şəkildə işləməlidirlər". Türkiyə xarici işlər nazirinin elan etdiyi "qonşularla sıfır problem" siyasətindən danışan B.Aras deyib ki, bunu bəyan edərkən riyazi formul nəzərdə tutulmur: "Əlbəttə, bütün dövlətlər arasında zaman keçdikcə problemlər yaranır. Biz bu formulu irəli sürərkən qonşularımızla münasibətlərin dostluq və tərəfdaşlıq əsasında inkişafını nəzərdə tutmuşduq.Məsələn, İranla münasibəti götürək. 400 ildən artıqdır ki, biz bu ölkə ilə xoş qonşuluq münasibətlərini inkişaf etdiririk, baxmayaraq ki, onların bu münasibətlərdə həmişə səmimi olduğunu təsdiq edə bilmirik. Biz həmişə yaranan problemləri həll etməyə çalışırıq. Bununla yanaşı, Bəşər Əsədin öz xalqını qırdığı bir halda Suriyadakı hadisələrə və ya Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə necə biganə qala bilərik?! Əlbəttə, bu ədalətsizlikləri görüb susa bilmərik. Lakin eyni zamanda biz bundan sonra da öz qonşularımızla münasibətlərin inkişafı üçün öz səylərimizi davam etdirəcəyik".

# "Ermənistandan fərqli olaraq Azərbaycan çoxmillətli dövlətdir"

## AQŞİN MEHDİYEV BMT BAŞ MƏCLİSİNDƏ ERMƏNİ NAZİRİN TƏXRİBATÇI ÇIXIŞINA CAVAB VERİB



Ermənistanın xarici işlər naziri E.Nalbandyan BMT Baş Məclisində ümumi müzakirələr çərçivəsində çıxışında ampluasına sadiq qalaraq bu dəfə də Azərbaycanın əleyhinə uydurma fikirlərini ifadə edib. Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyindən qəzetimizə verilən məlumata görə, bununla əlaqədar ölkəmizin BMT yanında daimi nümayəndəsi, səfir Aqşin Mehdiyev cavab hüququndan istifadə edərək E.Nalbandyanın çıxışında ifadə olunmuş fikirlərə münasibət bildirib və erməni nazirin çıxışının tamamilə yalanlar üzərində qurulduğunu vurğulayıb.

Çıxışını demək olar ki, R.Səfərov məsələsi üzərində qurmuş E.Nalbandyanın müvafiq qeydləri ilə bağlı A.Mehdiyev Azərbaycan tərəfinin bununla bağlı mövqeyinin BMT-nin baş katibinə ünvanlanmış məktubda aydın surətdə ifadə edildiyini bildirərək üzv dövlətləri həmin məktubla tanış olmağa çağırıb.

R.Səfərov məsələsini irqçilik nümunəsi kimi təqdim etməyə çalışan E.Nalbandyanın fikirlərinə cavab olaraq A.Mehdiyev monoetnik Ermənistandan fərqli olaraq Azərbaycanın çoxmillətli dövlət olduğunu və ermənilərin Dağlıq Qarabağdan başqa ölkəmizin digər ərazilərində də yaşadıqlarını vurğulayıb, müxtəlif beynəlxalq təşkilatların Ermənistan cəmiyyətində dözümsüzlük və nifrətin mövcudluğu faktını qeyd etməsinə toxunub: "Bu dözümsüzlük və nifrət işğal edilmiş ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsində və etnik zəmində qondarma qurumun yaradılmasında da öz əksini tapıb". Azərbaycanın BMT yanında daimi nümayəndəsi hazırkı Ermənistan prezidenti S.Sarkisyanın hələ 2000-ci ildə müdafiə naziri olarkən verdiyi müsahibələrinin birində minlərlə azərbaycanlı mülki əhalinin qətlə yetirilməsi ilə bağlı təəssüf hissi keçirmədiyi fikrini xatırladaraq Ermənistan rəhbərliyinin cinayətkar mahiyyətini diqqətə çatdırıb. E.Nalbandyanın guya beynəlxalq təşkilatların münaqişə ilə bağlı mövqeyinin Ermənistanın mövqeyi ilə üst-üstə düşməsi fikrinə cavab olaraq A.Mehdiyev BMT Təhlükəsizlik Şurası və Baş Məclisinin qətnamələrində Azərbaycan torpaqlarının işğaldan azad edilməsi çağırışının əks olunduğunu, son olaraq təkcə bu il NATO, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının sammitlərində qəbul edilmiş sənədlərdə Azərbaycanın münaqişə ilə bağlı mövqeyinə uyğun müddəaların öz əksini tapdığını xatırladıb və Ermənistan prezidenti S.Sarkisyanın məhz buna görə NATO və Qoşulmama Hərəkatının toplantılarına qatılmaqdan imtina etdiyini vurğulayıb: "İşğalçı dövlətin təcavüzünün qurbanı olan ölkəni özünün hərbi büdcəsini artırmaqda günahlandırması gülüncdür. Bundan əlavə, Azərbaycanın hərbi büdcəsi onun ümumi büdcəsinin artması kontekstində artır və bu, ölkənin ərazisi, əhalisi və ümumi daxili məhsulunun həcmi ilə uyğunluq təşkil edir. Ermənistan isə əslində Cənubi Qafqazda ən hərbiləşmiş dövlətdir".

Ermənistan cavab hüququnda Azərbaycanın BMT yanında daimi nümayəndəsinin qaldırdığı məsələlərə cavab vermək əvəzinə tamamilə məzmundan kənar və Azərbaycan tərəfinin qeydləri ilə heç bir uyğunluğu olmayan məqamlara toxunub. Yenidən cavab hüququndan istifadə edən A.Mehdiyev Ermənistanın faktiki olaraq heç nə söyləmədiyini və Azərbaycanın heç bir qeydinə cavab verməyərək yalnız uyğunsuz fikirlər səsləndirdiyini bildirib. Səfir, eyni zamanda, Ermənistanın növbəti dəfə regionda sülh və sabitlik axtarışından uzaq olduğunu nümayiş etdirdiyini, lakin onun münaqişə ilə bağlı siyasi gündəliyinin reallaşmayacağını, Yerevanın işğalçılıq siyasətindən və qonşularına ərazi iddialarından əl çəkməyə məcbur olacağını qeyd edib. Ermənistan nümayəndəsi bu dəfə yeni söz tapmaqda çətinlik çəkərək E.Nalbandyanın çıxışından böyük bir hissəni təkrar etmiş və Belarus xarici işlər nazirinin tamamilə ayrı kontekstdə işlətdiyi fikrindən sitat gətirib. Ümumiyyətlə, E.Nalbandyanın çıxışı, eləcə də sonradan cavab hüququ ilə çıxış edən Ermənistan nümayəndəsinin qeydləri BMT Baş Məclisində olan diplomatların ironiyası ilə qarşılanıb.

**S.MÜRVƏTQIZI**

# ATƏT PA-nın sabah Tiranada növbəti payız sessiyası başlayır

## *RƏBİYYƏT ASLANOVA:* " HƏQİQƏTLƏRİMİZİN DÜNYAYA ÇATDIRILMASI BAXIMINDAN BU QURUM ÇOX VACİB TRİBUNADIR"



ATƏT Parlament Assambleyasının (PA) növbəti payız sessiyası (konfransı) Albaniyanın paytaxtı Tirana şəhərində keçiriləcək. Oktyabrın 5-dən 7-dək keçiriləcək konfransın mövzusu isə "ATƏT: sabitlik və təhlükəsizliyin əsası kimi lazımi idarəetmə və inteqrasiyaya dəstək" olacaq. Bunu mətbuata açıqlamasında Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü, Milli Məclisin (MM) İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova dilə gətirib.

Rəbiyyət Aslanovanın qeyd etdiyinə görə, vitse-spiker Bahar Muradovanın rəhbərlik etdiyi Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvləri də tam heyətlə Tirana sessiyasının işinə qatılacaqlar. Qeyd edək ki, Azərbaycanı ATƏT PA-da MM sədrinin müavini Bahar Muradova, parlamentin İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova, Aqraq siyasət komitəsinin sədri Eldar İbrahimov, Regional məsələlər komitəsinin sədr müavini Fəttah Heydərov və millət vəkili Ağalar Vəliyev təmsil edirlər. R.Aslanovanın sonra bildirdiyinə görə, sessiyanın açılış günündə — oktyabrın 5-də sözügedən qurumun İtaliyadan olan sədri Rikkardo Miliori, Albaniya parlamentinin sədri Jozefina Topalli, ATƏT-in baş katibi Lamberto Zanie və Albabiyanın baş naziri Sali Berişa çıxış edəcəklər: "Açılış mərasimindən sonra payız konfransı öz işini iki sessiyada davam etdirəcək ki, birinci sessiya "ATƏT regionunda çoxmillətli və multikulturalist cəmiyyətlərin dəstəklənməsi" mövzusuna, ikinci sessiya "İqtisadi və maliyyə böhranı ilə mübarizə. Sərt qənaət siyasəti artımın stimullaşdırılmasına qarşı" mövzusuna həsr ediləcək. Hər iki mövzu üzrə ATƏT PA rəsmiləri —sloveniyalı parlamentari Roberto Battelli və avstriyalı deputat Volfanq Qrossruk moderatorluq edəcəklər. Sessiyanın ikinci günündə isə "ATƏT: sabitlik və təhlükəsizliyin əsası kimi lazımi idarəetmə və inteqrasiyaya dəstək" adlı mövzu üzrə müzakirələr keçiriləcək və bu müzakirələrə almaniyalı parlamentari, ATƏT PA sədrinin müavini Uta Tsapf moderatorluq edəcək. Həmin gün konfransın bağlanışı olacaq və mərasimdə Albaniyanın xarici işlər naziri, Avropa Şurasının Nazirlər Komitəsinin sədri Edmond Panariti, o cümlədən, ATƏT PA sədri Rikkardo Miliori çıxış edəcəklər. Eyni zamanda, qeyd edim ki, sessiyanın ikinci günündə ATƏT PA Daimi Komitəsinin iclası keçiriləcək".

R.Aslanova eyni zamanda bildirib ki, Azərbaycan nümayəndə heyətinin üzləri də ATƏT PA-nın bütün təbdirlərində çox aktiv və fəal iştirak edirlər. "Budəfəki sessiyada da məhz belə olacaq. Nümayəndə heyəti olaraq biz də sessiyanın müzakirəsinə çıxarılan mövzular ətrafında öz fikir və mövqeyimizi səsləndirəcəyik. Eyni zamanda onu vurğulamaq istəyirəm ki, Azərbaycan reallıqlarının, həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından ATƏT PA çox mühüm , önəmli bir tribunadır və biz də hər zaman olduğu kimi, bu dəfə də bundan maksimum yararlanmağa çalışacağıq"-deyə, R.Aslanova sonda sözlərinə əlavə edib.

**KAMİL**

# Rusiya-Azərbaycan forumunda Bakı bəyannaməsi

"Bakıda keçiriləcək Rusiya-Azərbaycan beynəlxalq humanitar forumunun bütün təşkilati işləri, o cümlədən forumda müzakirəyə çıxarılacaq mövzular iki ölkənin birgə razılığı ilə müəyyən olunub". APA-nın məlumatına görə, bu barədə jurnalistlərə açıqlamasında Azərbaycan Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov bildirib. O qeyd edib ki, Foruma dünyanın 100-ə yaxın ölkəsindən 600-ə qədər nümayəndə qatılacaq: "Onların sırasında 10-dan artıq Nobel mükafatı laureatı, 15-dən artıq keçmiş prezident, müxtəlif ölkələrin hökumət rəhbərləri, nazirləri, elm-təhsil və mədəniyyət sahəsində çalışan tanınmış dünya xadimləri, o cümlədən digər sahələrin mütəxəssisləri var". Ə.Həsənovun sözlərinə görə, forumun birinci və ikinci günü çərçivəsində həm plenar iclaslarda, həm bölmə iclaslarında müxtəlif sahələr üzrə müzakirələr keçiriləcək: "Sonda isə Bakı bəyannaməsi qəbul olunacaq".

PA rəsmisi bildirib ki, ümumiyyətlə bu forumda bir tərəfdən təhsil, mədəniyyət və digər sahələrdə mövcud olan yeniliklərin Azərbaycanda təbliğinin yayılması və tətbiqi məsələləri nəzərdə tutulur: "Digər tərəfdən Azərbaycanın mövcud sahələr üzrə inkişafını stimullaşdırmaq, qazandığımız nailiyyətləri nümayiş etdirmək və bu sahələrin işinin bir az da həvəsləndirmək məqsədimiz var".

Ə.Həsənov deyib ki, forum iştirakçıları 2 gün ərzində Azərbaycanın regionlarında mərkəzi icra orqanlarının təşkil etdikləri tədbirlərdə iştirak edəcək, müəssisələrdə Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı təşkil olunmuş toplantılara qatılacaqlar.

# Zahid Oruc: "Virtual məkanda hələ də 2005-ci ilin parlamentinə poetik nifrinlər və siyasi epitafiyalar oxumaqla məşğuluq"

"Azərbaycanın siyasi səmasını kompromat savaşları,iqtisadi diversiyalara bənzəyən yanğınlar və yol qəza-qətliamları tutduğu bir dönəmdə Xankəndi hava limanı istifadəyə verildi. Ölkə insanının ümumxalq etirazını qazanmalı olan bu olay kütləvi hay-küy fonunda eşidilməz oldu".Bunu mətbuata açıqlamasında millət vəkili Zahid Oruc dilə gətirib. Onun dediyinə görə, bu anda Qarabağ savaşının ilk illərini xatırlayıb və yenə də eyni mənzərəymiş:

"Bakıda mitinqlərlə Şuşanın taleyini həll edərkən torpaqlar ayaqlarımız altından çəkilib getdi.İndi səmamızı əlimizdən alırlar.Bizsə virtual məkanda 2005-ci ilin parlamentinə poetik nifrinlər və siyasi epitafiyalar oxumaqla məşğuluq.

Qarabağı dünyada müstəqil təqdim etməkdən bundan yaxşı nə yol ola bilər? Bütün avia xəritələrə "DQR" adını saldırmaq,o ölkələrdən uçuş zolağı alaraq müstəqil qərarlar qəbul etmək gələcəkdə ciddi siyasi nəticələr doğuracaqdır.Kosovo üçün də belə etdilər". Z.Oruc qeyd edib ki, hər ölkədə yaranacaq "Stepanakert hava limanı büroları" "azad bir ölkənin ilk səfirlik xidmətlərinə,tanıtım nişanlarına və təbliğat sımvollarına çevriləcək: "Bir Avropa ölkəsində "Azal"la eyni cərgədə bunları görəndə Elşad və ABU Petrol Universiteti yadınızdan çıxacaq...Sanki ən əlverişli zamanı seçən ermənilər bizim daxili şəraitlə harmonik hərəkət etməyi həmişə bacarmışlar. Unutmayın,bu liman iri tutumlu təyyarələri qəbul edə biləcək.

Deməli, ermənilər təkcə Qarabağ dövlətçiliyini dünyaya təqdim etmək məqsədi güdmürlər,həm də bunu iqtisadi və hərbi cəhətdən mühüm dayağa çevirəcəklər.Silah və texnika artıq ən təcili zamanda ermənilərə çatdırıla biləcək və Laçın koridorunun hava xətti alternativi yaranacaq.Onsuz da Qarabağdakı silah və texnikanı inspeksiya etmək imkanımız yox idi,indi bu proses bir az da mürəkkəbləşəcək". Millət vəkilinin eyni zamanda bildirdiyinə görə, dünya silah bazarı nəzarətsiz zonadır və onu erməni pulları ilə Qarabağa daşımaq artıq zaman məsələsidir: "Bu isə Qarabağ müharibəsinin gələcəyi üçün tamam yeni mərhələdir... Cənablar,bəlkə bütün iqtisadi-siyasi-diplomatik potensialımızı buna yönəldək ki,heç bir ölkə və kompaniya Azərbaycanın hava məkanına qanunsuz daxil olmağa cəsarət etməsin və bunun itkilərini,risqlərini hesablasın.Bəlkə poetik potensialımızı,antihakimiyyət savaşlarımızın 5-cə faizini bura yönəldək ki,başımızın üstündəki "Göyümüzü" əlimizdən almasınlar".

Z.Oruc daha sonra qeyd edib ki, torpağın işğalına dözüb də uca göylərdən yaradıcı qafiyə axtarıb Qarabağ nisgilini romanlara köçürən qələm əhli, indi Qarabağın səması da gedir: " Yəqin unutmamız ki,Xankəndi deyilən bu aeroport Xocalıda yerləşir. Biz ordan ölülərimizi belə daşıya bilmədik,indi ermənilər dirilərini bu nicat yolundan aparacaqlar.Soyqırıma məruz qalmış Xocalı ruhları indiyədək heç olmasa göylərdə qərar tutmuşdular,indi isə...Üzümüzü Allaha tutarkən Yaradanla özümüz arasında erməni təyyarələrini görəndə o ruhlar bizi bağışlamayacaq!"

**KAMİL**

# Sahibə Qafarova AŞPA-da EDG partiyası adından rəylə çıxış etdi

## "PARTİYALARIN SƏMƏRƏLİLİYİNİN, ETİBARLILIĞININ DEMOKRATİYANIN MAHİYYƏTİNƏ VƏ UĞURUNA ƏSASLI TƏSİRİ VAR"



Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin üzvü, professor Sahibə Qafarova sözügedən qurumun Strasburqda öz işini davam etdirən payız sessiyasında EDG partiyası adından "Political parties and womens political representation" adlı hesabata dair rəylə çıxış edib. "525"-in millət vəkilinin özünə istinadən verdiyi məlumata görə, adıçəkilən hesabatda bir-biri ilə çox yaxşı uzlaşdırılan iki mühüm məsələdən söhbət açılır ki, bunlar da siyasi partiyalar və siyasi partiyalarda qadınlar məsələləridir. Millət vəkilinin fikrincə, siyasi partiyalar məsələsi çox vacibdir, çünki məlum olduğu kimi, bu günkü demokratik sistemlər fərqli fikirlərin yönəldilməsinin və siyasi qərarvermə prosesində maraqların müxtəlifliyinin təmin edilməsinin əsas vasitələrindən biri olan siyasi partiyalara söykənir. S.Qafarovanın qeyd etdiyinə görə, siyasi partiyalar dövlət hakimiyyətinin formalaşdırılmasında, siyasi kursun müəyyən edilməsində və onun həyata keçirilməsində vacib rol oynayır:

"Partiyaların səmərəliliyinin, etibarlılığının demokratiyanın mahiyyətinə və uğuruna əsaslı təsiri var. Onlar bütövlükdə siyasi sistemin legitimliyində son dərəcə əhəmiyyətlidirlər və demokratik prosesin səmərəliliyinə vacib zəmin yaradırlar. Buna görə də, bir çox beynəlxalq qurumlar, təşkilatlar bu məsələyə diqqət yetirirlər". Millət vəkili eyni zamanda bildirib ki, siyasi partiyalarda qadınlar məsələsi də önəmlidir. "Qadınların siyasi təmsilçiliyindən danışan cənab məruzəçi çox xırdalıqlara yol vermədən üzv ölkələrin, yaxud müxtəlif regionların təcrübəsi əsasında nümunələr göstərir. O, həmçinin, qadınların ayrı-ayrı ölkələrin parlamentlərindəki nisbətini göstərən cədvəl də təqdim edib. Qadınların siyasətdəki təmsilçiliyini artırmaq üçün hər hansı formul yoxdur"-deyə, millət vəkili sözlərinə əlavə edib. S.Qafarova bununla yanaşı onu da vurğulayıb ki, hər bir ölkə bu məsələdə müxtəlif siyasi ənənələrin, siyasi və seçki sistemlərinin, siyasi qərarvermədə gender bərabərliyinin əhəmiyyətinin dərkolunma dərəcəsindəki fərqlərin və digər amillərin təsiri ilə öz yolunda irəliləyir:

"Mən EDG adından bu hesabatı yüksək dəyərləndirirəm və əminəm ki, Parlament Assambleyası qadınların siyasi partiyalardakı təmsilçiliyinə dair müsbət təcrübəyə əsaslanaraq Avropa Şurasına üzv və müşahidəçi ölkələrdə, həmçinin, demokratiya naminə tərəfdaş ölkələrin siyasi partiyaları üçün qadınların parlamentdəki təmsilçiliyi ilə bağlı yaxşı məsləhətlər tövsiyə etməlidir".

**KAMİL**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU



"Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə

# Açıq cəmiyyət və mətbuat



*Tofiq YUSİFOV*

**(Əvvəli ötən sayımızda)**

Sivil Qərb ölkələrində vətəndaş cəmiyyəti anlayışı, əsasən, aşağıdakıları özündə ehtiva edir:

1.Vətəndaş cəmiyyəti istənilən normal siyasi birliyin inkişafının zirvəsidir.

Bu yanaşmaya görə, Qərb cəmiyyətləri çox inkişaf etmiş ölkələrdir, ona görə də burada "Sivil society" (Vətəndaş cəmiyyəti) mövcuddur. Şərqi Avropa, Asiya və inkişaf etməkdə olan ölkələr və cəmiyyətlər olduğu üçün burada eyni zamanda vətəndaş cəmiyyətinə xas olan fenomenlər də meydana çıxacaqdır.

2. Vətəndaş cəmiyyəti toplumun elə bir vəziyyətidir ki, müxtəlif xarici şəraitlərdən asılı olaraq həmişə və hər yerdə mövcud ola bilər.

Bu yanaşmaya görə vətəndaş cəmiyyəti, ümumiyyətlə, cəmiyyət anlayışının sinonimi kimi götürülür.

3. Vətəndaş cəmiyyəti unikal sivilizasiya şəraitinin unikal bir məhsuludur.

Bu yanaşma mübahisəli məqamlarla müşayiət olunur və əsas yanlışlıq da vətəndaş cəmiyyətlərinin, əsasən xristian icmalar və Şərqi Avropaya xas olan dini-mədəni kontekstin zəruruliyi iddiasıdır. Fikrimizcə, vətəndaş cəmiyyətinin formalaşması üçün dini-mədəni şərtin mövcudluğunun zəruriliyi absurd iddiadan başqa bir şey deyildir.

Vətəndaş cəmiyyəti amorf bir qurum deyil, mükəmməl struktura və təşkilatlanmaya malik çox qüdrətli siyasi qüvvədir. Vətəndaş cəmiyyəti vətəndaşla korporativ maraqları uzlaşdıran xüsusiyyətlərə malik olmalıdır. Yəni, vətəndaş cəmiyyətinin yaranması və real qüvvəyə çevrilməsi üçün ayrı-ayrı vətəndaşların, ictimaiyyətin dövlətin işində fəal iştirak etmək şəraiti özünü göstərməlidir. İlk növbədə isə bu fəallıq hakimiyyətin formalaşması, fəaliyyət göstərməsi və idarə edilməsi proseslərində hiss olunmalıdır. Əks təqdirdə, vətəndaş cəmiyyətinin formalaşmasından söhbət belə gedə bilməz. Bütün bunlar göstərir ki, vətəndaş cəmiyyəti tam və olduqca təsirli sosial — siyasi amildir. Sosial fəallığın və yaxud sosial etirazın bildirilməsi yalnız vətəndaş və korporativ maraqların birliyi, insanın bütövlükdə cəmiyyətə bağlılığı əsasında siyasi və iqtisadi plüralizm, həqiqi liberal islahatların mövcudluğu şəraitində mümkündür. Məhz bu şəraitdə orta sinfin formalaşması reallaşır və sağlam rəqabət mühiti yaradılır. Vətəndaş cəmiyyəti əslində üfüqi, sosial münasibətlərin, özü də dövlətdən ayrı olan, muxtar təsisat və birliklərin məcmusudur. Həmin təsisat və birliklər azad, məsuliyyətli fərdlər tərəfindən öz maraqlarının qorunması üçün yaradılır. Vətəndaş cəmiyyəti elə bir strukturdur ki, o, təşkilatlanmış şəkildə öz üzvlərinin müdafiəsi üçün dövlət hakimiyyətinə qarşı durmaq iqtidarındadır və yaxud dura bilər. Vətəndaş cəmiyyəti əsasən xalq və hakimiyyətin birgəyaşayış formasıdır və belə bir cəmiyyət, bir qayda olaraq, əsasən, despotizmin aradan qaldırılması zamanı meydana gələ bilir.

Son onilliklər ərzində vətəndaş cəmiyyəti həm siyasi dövlət xadimlərinin, həmçinin siyasət nəzəriyyəçilərinin çıxış və yazılarında ən çox istifadə edilən anlayışa çevrilmişdir. Bu anlayış XX əsrin sonu, XXI əsrin əvvəllərində müəy-yən mənada ictimai idealın simvoluna çevrilmişdir. Çox vaxt belə bir fikir irəli sürülür ki, əgər vətəndaş cəmiyyəti fenomeni varsa, orada həyat həmahəngdir, insan azaddır və müdafiə olunur. Əgər yoxdursa, onda dövlət despotizmi hökm sürür, cəmiyyət parçalanmadan əziyyət çəkir, adi bir insan isə yalnız oliqarxik elitanın və mafioz klanların manipulyasiyası obyektinə çevrilir.

Bəzi tədqiqatçılar belə hesab edirlər ki, vətəndaş cəmiyyəti çox gözəl bir fenomendir və bu fenomeni "özəlləşdirmək" və onu ancaq daxili istifadə üçün saxlamaq lazımdır. Lakin digər alimlər, məsələn, rus politoloqu A.Zubov da belə hesab edir ki, vətəndaş cəmiyyəti elə bir cəmiyyətdir ki, o, təşkilatlanmış şəkildə dövlətə qarşı çıxa bilir.

Vətəndaş cəmiyyətinin əsas xüsusiyyəti ondan ibarətdir ki, o, hüquqi xarakter daşımalıdır, yəni vətəndaş cəmiyyəti yalnız hüquqi dövlət şəraitində formalaşır və fəaliyyət göstərir. Belə halda, həmin cəmiyyət hüquqi dövlətin prinsiplərinin qorunmasının təminatçısına çevrilir və insanları dövlətin özbaşınalığından qoruya bilir. Bu o deməkdir ki, vətəndaş cəmiyyəti elə bir mexanizmdir ki, o, cəmiyyətə dövlətlə birgəyaşayış əsasında realizə olunmağa imkan verir və öz maraqlarını qoruyur. İnsanlar, nəhayət, başa düşməlidirlər ki, hakimiyyətdən yaxa qurtarmaq və eyni zamanda müasir şəraitdə cəmiyyəti tam nəzarət altına almaq mümkün deyildir .

Vətəndaş cəmiyyəti digər qurumlardan onunla fərqlənir ki, o, yuxarıdan birləşdirilən dövlət qurumu deyildir, vətəndaş cəmiyyəti fərdlərin azad və sərbəst yaradıcılığının nəticəsidir. Amma qəbilə-tayfa quruluşunu və ya mafiya birliyini bu birliklə qarışdırmaq lazım deyil. Çünki bu qruplar liberal rejimlə, hüquqi dövlətlə ziddiyyət təşkil edir. Təkcə ona görə ki, bu qruplar daxilində fərdin demək olar azad seçimi yoxdur və o, məhdud çərçivədə fəaliyyət göstərir.

Dövlətin əsas vəzifəsi onun cəmiyyətdə nizam-intizam yaratmağa yönəlmiş fəaliyyətidir. Demokratik cəmiyyətdə bu yönümdə əsas alət kimi hüquqi normalar və qanunlar çıxış edir. Yəni dövlət nə qədər demokratik olsa da, müəyyən şərtlər daxilində vətəndaş institutları, təsisatları mərkəzi hakimiyyətə tabe olur, əks təqdirdə, xaos yarana bilər. Dövlət və vətəndaş münasibətlərində dövlət özü hüquqi münasibətlər qurmaq yolu ilə, yəni vətəndaş cəmiyyətinin mövcudluğu ilə nəzarət altına düşür. Bir növ funksiyaların bir hissəsini vətəndaş cəmiyyəti öz öhdəsinə götürür və bu əlaqələr qarşılıqlı əlaqəyə çevrilir.

Vətəndaş cəmiyyətinin həyati fəaliyyətinin başlıca şərti onun hər bir üzvünün konkret mülkiyyətə yiyələnməkdə iştirak imkanı əldə etmək, ondan özü istədiyi kimi istifadə etmək və onun barəsində sərəncam vermək hüququna nail olmasıdır. Mülkiyyət sahibi olmaq vətəndaş cəmiyyətində şəxsiyyət azadlığının əsas təməl daşıdır. Vətəndaş cəmiyyətinin uğurlu fəaliyyətinin daha bir mühüm şərti cəmiyyətdə müxtəlif qrup və təbəqələrin mənafelərini bütün zənginliyi və çoxcəhətliliyi ilə əks etdirən inkişaf etmiş sosial strukturun mövcud olmasıdır. Sosial strukturun dağınıqlığı şəraitində fərd dövlətdən birbaşa asılı olur ki, bu da onun öz şəxsi hüquq və azadlıqlarını reallaşdırmaq imkanlarını xeyli məhdudlaşdırır.

Azərbaycan mətbuatı öz tarixi boyu daim mütərəqqi ideyaların carçısı kimi çıxış edib, xalqımızın müstəqillik amalının güclənməsində, mənəvi dəyərlərin tərəqqisində, milli şüurun, millətin əxlaqının, mənliyinin formalaşmasında böyük rol oynamışdır. Zəngin tarixi ənənələrə və demokratik prinsiplərə söykənən Azərbaycan mətbuatı müxtəlif dövrlərdə imperiya iddialı iqtidarların, bu və ya başqa müdaxilələrin təsir və təzyiqlərini öz üzərində hiss edib, onun fəaliyyət sferası bürokratik dairələrlə məhdudlaşdırılmışdır. Xüsusilə SSRİ dönəmində milli mətbuatımız çox ciddi təhdidlərlə fəaliyyət göstərmiş, Moskvadan istiqamətləndirilən repressiyalara məruz qalmışdır. Keçmiş Sovet İttifaqının ən önəmli ideoloji silahı olan mətbuat mərkəzi hakimiyyətin müəyyənləşdirdiyi konkret qəliblərlə işləməyə məcbur olmuşdur.

XX əsrin sonu, XXI əsrin əvvəllərində Azərbaycanda suverenlik və demokratiya dalğası ölkənin tərəqqisi və sivil dəyərlərə yanaşması ilə bərabər, KİV-in də çox sürətli tərəqqisi və cəmiyyətdə mövqelərinin möhkəmlənməsi ilə yadda qaldı. Bu iqtisadi-siyasi, sosial — mədəni, intellektual tərəqqi isə öz növ-bəsində cəmiyyətin inkişafının yeni mərhələsinə keçidinə gətirib çıxardı. Azərbaycanda demokratiya, plüralizm, fikir və söz azadlığının əsas daşıyıcılarından biri olan media, insanların cəmiyyətin idarə olunmasında iştirakını labüdləşdirdi, onları ölkənin taleyüklü məsələlərində daha məsuliyyətli və fəal olmağa səfərbər etdi. İnsanlarda ölkə, Vətən üçün, onun taleyi üçün bir sahiblik, bir məsuliyyət hissi, duyğusu yaradan bu dalğa ölkədə prinsip və keyfiyyətcə yeni bir prosesin — açıq cəmiyyət quruculuğunun ilk mərhələsi idi.

Bu prosesin mənbəyində isə nə qədər gözlənilməz olsa da, məhz mətbuat, kütləvi informasiya vasitələrinin inkişafı, geniş oxucu və tamaşaçı kütlələrini öz arxasınca aparmaq qabiliyyəti dayanırdı. Artıq 80- ci illərin ortalarından başlayaraq Azərbaycanda mətbuatın xalqla əlaqəsinin möhkəmlənməsi, onun "təbliğatçılıq, təşviqatçılıq, həm də təşkilatçılıq" funksiyasının bolşevizm prinsipləri çərçivəsindən çıxaraq, daha geniş milli miqyas və aktuallıq qazanması özünü kəskin şəkildə büruzə verirdi. Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan mətbuatının XX əsrin sonu, XXI əsrin əvvəllərində inkişaf dinamikası həm Şərqi Avropada, postsovet məkanında baş verən proseslərin, həm də XIX əsrin sonları, XXI əsrin əvvəllərində bütün Yaxın və Orta Şərqə səs salmış "Əkinçi", "Molla Nəsrəddin", "Füyuzat" kimi jurnalistika məktəblərinin təsirindən qaynaqlanırdı. Artıq XX əsrin əvvəllərində, ölkəmizin bolşeviklər tərəfindən işğalından öncə Azərbaycanın jurnalistika mühiti Qərbin mütərəqqi mətbuat cərəyanlarından və nəzəriyyələrindən yaxşı xəbərdar idi.

Ölkəmizin ictimai fikir tarixində böyük rolu olan M.Ə.Rəsulzadə mətbuat azadlığını demokratik dəyərlərə yiyələnmək sahəsində ən ciddi vasitə hesab edirdi. O, hələ 1911- ci ildə qələmə aldığı "Mətbuat azadlığı" adlı məqaləsində yazırdı: "O millət, o məmləkət azad və xoşbəxtdir ki, onların mətbuatı azad və xoşbəxt olsun."

Mətbuat azadlığının gücünü çox dəqiq bilən və qiymətləndirən M.Ə.Rəsulzadə daha sonra göstərirdi: "Mətbuat azadlığına əl qaldırmaq insan azadlığına təcavüz etməkdir. Adamların fikri və zehni azad olsa, onların fərdi inkişafı da sürətlənər. Azadlığın qarşısını almaq, insanın ağıl və təfəkkürünü əlindən alıb onu bir maşına, ya cansız alətə çevirmək deməkdir. Məşhur ingilis yazıçısı Milton neçə əsr bundan qabaq demişdir: "Bir yaxşı kitabın aradan çıxarılması, bir yaxşı adamın edam olunmasına bərabərdir. Amma bir mətbuat orqanının qabağını almaq, ya onu aradan çıxarmaq nalayiq bir vəziyyətin yaranmasına səbəb ola bilər..."

XIX əsrin ortalarından başlayaraq çar Rusiyasının ayrı-ayrı şəhərlərində demokratik proseslərə qoşulan, imperiyanın müxtəlif ali məktəblərində təhsil alan, mütərəqqi dünyagörüşünə malik Azərbaycan ziyalıları millətin qurtuluşunu maarifləndirmədə, mövcud üsul-idarəni devirməkdə, yeni azad və müstəqil dövlət yaratmaqda görürdülər. Milyonlarla insanı bir bayraq altında birləşdirəcək, onlara həqiqətləri anladacaq və vahid məqsəd uğrunda irəliyə aparacaq yeganə vasitə isə mətbuat — qəzet və jurnallar idi. Sözügedən dövrün demək olar bütün işıqlı ziyalıları — H. Zərdabi, N.Vəzirov, Ünsizadə qardaşları, N. Nərimanov, C. Məmmədquluzadə, Ə. Haqverdiyev, M.Ə.Rəsulzadə, H.Ağayev, Ə.Ağayev, Ə.Hüseynzadə, M.S.Ordubadi, Ə.Topçubaşov, Ü.Hacıbəyov, C.Hacıbəyli, M.Ə.Sabir, A.Səhhət və onlarca başqaları millətin azadlığı və milli dirçəlişi üçün mətbu sözün gücündən bacarıqla istifadə edir, öz yazılarını az qala ürəklərinin qanı ilə yazırdılar.

Bu mübarizə isə kifayət qədər çətin və fədakarlıq tələb edən bir iş idi. Həmin dövrdə Azərbaycanda mövcud olan tarixi vəziyyət mətbuatın inkişafına mane olan ciddi problemlərdən biri idi.

**(Ardı var)**




**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# ARDNŞ-də insan resursları ilə bağlı müşavirə keçirilib

ARDNŞ-nin baş ofisində insan resurslarının idarə edilməsi məsələlərinə həsr olunmuş müşavirə keçirilib. Şirkətdən verilən məlumata görə, müşavirəni giriş sözü ilə açan ARDNŞ-nin prezidenti Rövnəq Abdullayev şirkətdə insan resurslarının idarə edilməsi sisteminin təkmilləşdirilməsinə olan zərurətdən danışıb və bu sistemin yerli qanunvericiliyə, müasir standartlara və beynəlxalq praktikaya uyğunlaşdırılmasının vacibliyini vurğulayıb.

İnsan Resursları Departamentinin rəisi Asif Bəkirli və departamentin şöbə rəisləri Teymur Mahmudov, Tural Məmmədov və şöbə rəisinin müavini Mahal Mehdiyev çıxış edərək görülən işlər haqda şirkət rəhbərinə məlumat veriblər. Bildirilib ki, departament yerli qanunvericiliyin tələbləri əsasında beynəlxalq standartların tələblərinə uyğun şəkildə kadrların seçilməsi, işə qəbul olunması, səmərəli yerləşdirilməsi və yerdəyişməsi, karyera yüksəlişinin planlaşdırılması, peşəkarlıq səviyyəsinin artırılması və insan resurslarının idarə edilməsi üzrə işləri layiqincə, şəffaflıq və obyektivlik prinsipləri əsasında həyata keçirib. Departament fəaliyyətə başladığı dövrdən etibarən 1880 vakansiya elan olunub, həmin yerlər üzrə 28908 nəfər namizədin müraciəti qəbul edilərək onların ilkin tələblərə uyğunluğu yoxlanılıb. İlkin tələblərə cavab verən 7252 nəfər test və peşə sınaq imtahanında, onlardan da 3924 nəfər müsahibələrdə iştirak edib və nəticədə 1036 nəfər müsabiqədən uğurla keçərək ARDNŞ-də müvafiq işlə təmin olunması üçün iş təklifləri alıblar. Eyni zamanda departament yarandığı gündən başqa işə keçmə üzrə müraciət edən 2786 nəfərdən 2406 nəfərin müraciəti məqsədəuyğun hesab olunub. 467 şikayət və ərizə cavablandırılıb. Xarici təqaüd proqramında iştirak etmək üçün müraciət edən 110 nəfərdən 96 nəfəri müsabiqəyə buraxılıb, nəticədə onlardan 35-i təqaüdçü seçilib. Son daxili təqaüd proqramında iştirak etmək üçün müraciət etmiş 2014 nəfərdən 184 nəfəri test imtahanından və müsahibədən keçərək ARDNŞ-nin təqaüdçüsü adına layiq görülüb.



Müşavirədə "karyeranın idarə edilməsi" sistemi haqqında danışılıb. Bildirilib ki, karyera planlaması əsasında ARDNŞ-də fəaliyyət göstərən hər bir əməkdaş öz seçimi ilə təhsilinə, biliyinə, iş təcrübəsinə, bacarıq və səriştəsinə uyğun olaraq karyera inkişafını həyata keçirə biləcək. Nəticədə Şirkət üzrə əməyin məhsuldarlığının yüksəlməsinə, işçilərin isə öz potensiallarından maksimum yararlanmalarına nail olunacaq, bu isə əməkdaşların motivasiyasına yüksək təsir edəcək.

**BƏXTİYAR**

# 11 rayonda 23 subartezian quyusu istifadəyə verilib

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti Bakı şəhəri ilə yanaşı, regionlarda da içməli su təchizatı layihələrinin icrasına xüsusi diqqət yetirir. ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bölgələrdə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. İlkin mərhələdə içməli sudan daha çox əziyyət çəkən yaşayış məntəqələrində tədbirlər görülür. Bu istiqamətdə görülən işlər çərçivəsində 2012-ci ilin 9 ayında Lerik, Yardımlı, Xızı, Balakən, Ağcabədi, Samux, Zaqatala, Şəki, Goranboy, Ağdam və Qazax rayonlarının kənd və qəsəbələrində əhalinin suya olan tələbatını ödəmək məqsədilə "Birləşmiş Sukanal" MMC-nin sifarişi əsasında 23 subartezian quyusu qazılaraq sakinlərin istifadəsinə verilib. "Birləşmiş Sukanal" MMC-nin xidmət göstərdiyi rayon mərkəzləri və kəndlərdə 140 km uzunluğunda magistral və paylayıcı su xətti, 2,3 km uzunluğunda kanalizasiya xətti çəkilib. Bununla paralel olaraq yaşayış məntəqələrində ümumi tutumu 300 kubmetr olan su anbarları tikilib. Görülən işlərin nəticəsi olaraq 32 mindən artıq insanın içməli su təchizatı əsaslı şəkildə yaxşılaşdırılıb. "Azərsu" ASC-nin "Birləşmiş Sukanal" MMC ölkənin 54 rayonunda bu istiqamətdə tədbirləri davam etdirir.



**BƏXTİYAR**

## "Kapital bazarlarının formalaşdırılması" mövzusunda beynəlxalq konfrans keçiriləcək

Oktyabrın 5-də Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin təşkilatçılığı (QKDK), Dünya Bankının və Paşa Bankın dəstəyi ilə "Kapital bazarlarının formalaşdırılması-trendlər, çağırışlar, imkanlar" mövzusunda beynəlxalq konfrans keçiriləcək. Komitədən verilən məlumata görə, 21 ölkədən 100-dən çox nümayəndənin iştirakı ilə keçiriləcək konfransda qiymətli kağızlar bazarında dövlət tənzimlənməsi, beynəlxalq fond birjaları və mərkəzi depozitar qruplarının inkişaf tendensiyaları, fond bazarlarının fəaliyyətində bankların və bankçılığın rolu istiqamətlərində geniş müzakirələr aparılacaq.

**BƏXTİYAR**

## Tacikistanda beynəlxalq iqtisadi forum keçiriləcək

Oktyabrın 11-12-də Tacikistanın Soqd vilayətində Tacikistanın İqtisadi İnkişaf və Ticarət Nazirliyinin və Soqd vilayəti İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Soqd vilayətinin investisiya potensialı" mövzusunda beynəlxalq iqtisadi forum keçiriləcək. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) verilən məlumata görə, forumda azərbaycanlı iş adamlarının iştirakı gözlənilir.

**BƏXTİYAR**

## Fransa Senatının nümayəndə heyəti ARDNF-də olub

Dövlət Neft Fondunun (ARDNF) İcraçı direktoru Şahmar Mövsümov ilə Fransa Senatının enerji üzrə araşdırma qrupunun həmsədri senator Ladislas Poniatovskinin başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. ARDNF-dən verilən məlumata görə, Ş. Mövsümov Dövlət Neft Fondunun fəaliyyəti, Fondun vəsaitlərinin idarə edilməsi, Suveren Fondlar, Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) Azərbaycanda tətbiqi prosesində ARDNF-nin aparıcı rolu barədə qonaqlara ətraflı məlumat verib. Görüş zamanı Fond tərəfindən maliyyələşdirilən layihələrin ölkənin inkişafı üçün əhəmiyyəti xüsusi vurğulanıb və həmçinin Azərbaycan ilə Fransa arasında iqtisadi əməkdaşlıq məsələləri də müzakirə edilib.

Görüşün sonunda Ş. Mövsümov ARDNF-nin fəaliyyətinə dair qonaqları maraqlandıran sualları cavablandırıb.

**BƏXTİYAR**

## 9 ay ərzində 25561 hüquqpozmaları qeydə alınıb

2012-ci ilin 9 ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 25561 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib. Vergilər Nazirliyindən verilən məlumata görə, vergi ödəyicilərinin 50,6 faizi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 10,8 faizi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu və valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satıldığı və ya dəyişdirildiyi, 4,5 faizinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 17,2 faizinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilib.

2560 vergi ödəyicisi tərəfindən 4228 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 1264 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 480 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 6436 ədəd mal olduğu aşkarlanıb. Aşkar olunmuş faktlarla bağlı qanunamüvafiq tədbirlər görülüb.

**BƏXTİYAR**

## Acıdərəçay və Kür çayı üzərindəki körpülər təmir olunacaq

Qazax və Ağstafa rayonlarının kənd və yaşayış məntəqələri, eləcə də Bakı-Qazax-Gürcüstanla dövlət sərhədi avtomobil yolu ilə əlaqələndirən Ağstafa-Poylu-Gürcüstan yolunun uzunluğu 59 km-dir. "Azəryolservis"dən verilən məlumata görə, 26 km-i asfalt-beton, 33 km-i isə çınqıl örtük təşkil edən 3-cü texniki dərəcəli yol uzun müddət istismarda olduğundan yol geyimində dağılmalar və çökmələr baş verib. Yol avadanlıqları, süni qurğular yarasız vəziyyətə düşüb. 2 texniki dərəcəyə uyğun yenidən qurulması nəzərdə tutulan yolun 54 km hissədə torpaq yatağının, 40 km-də isə əsasın tikintisi yekunlaşıb. Hazırda süni qurğularla yanaşı, digər sahələrdə yolun əsası tikilir.

Layihə çərçivəsində 5-ci km-də Acıdərəçay, 17-ci km-də Kür çayı üzərindəki körpülər də əsaslı təmir olunacaq.

**BƏXTİYAR**

# Şabalıd qoxulu İstanbul



*Günel EMİNLİ*

"- Günka, "İstanbul"u tez qaytar.

— Niyə ki? İmkan ver, oxuyum.

— Yox, uzatma. Atamındır, müəllim kitablarına çox diqqətlidir.

— Söz. Oxuyum, qaytaracam".

Söhbət Orxan Pamukun "İstanbul — xatirələr və şəhər" kitabından gedirdi.

Bakıda havanı ılıq qoyub getməyimizə baxmayaraq, İstanbul qapısını üzümüzə yağışla açdı. Çox da böyük olmayan Atatürk Hava Limanında pasport qeydiyyatından keçmək üçün növbəyə duranda yuxarıdakı yazılara diqqət etdim. Tablonun birində "Türk vətəndaşları", digərində isə "Başqa milliyyətlər" yazılmışdı. Sözsüz ki, ikinci cərgədə dayanası olduq. Təəssüfləndim... Növbədə hər millətdən adam var idi və sıra çox uzun idi. Bütün günü siyasətçilərin bar-bar bağırdıqları "Bir millət iki dövlət" lozunqu, deyəsən, Atatürk limanına hələ gəlib çıxmamışdı. Yoxsa bu növbədə nə işimiz vardı?!

Bizi qarşılayan türk dostumuz Mustafa bəy İstanbul tıxaclarından xəbərdar etsə də, otelimiz şəhərin mərkəzində olduğu üçün və üstəlik də şəhəri görək deyə avtomobili mərkəzi şosselərlə sürməyə qərar verdi. Hava soyuq idi, bir yandan da yağış yağırdı, əynimizdə yay paltarları olduğundan üşüyürdük. Amma məni İstanbulu açıq şüşədən seyr etmək həvəsi rahat buraxmırdı. Odur ki, avtomobilin şüşələrini açıb, xəstələnməyim deyə dua edə-edə İstanbula göz atdım. İslanmış qağayılar boğazdakı sürahilərə qonub sakitcə yağışın dayanmasını gözləyirdilər. O an elə köməksiz görünürdülər ki. Yağış boğazüstü uçuş planlarını pozmuşdu. İstanbul ilk baxışdan gözümə boz dəydi. Atatürk Hava Limanında əldə etdiyim İstanbulun xəritəsinə nəzər yetirirəm. Validə Sultan, Fatih Sultan, Sultan Ahmet, Mehrimah məscidi, türk mədəniyyətində məscid inşa etmək həmişə xüsusi adət olub. Demək olar ki, bütün taxta çıxan sultanlar öz analarının şərəfinə məscidlər tikdiriblər, bu üzdəndir ki, İstanbul xəritəsində ən çox rast gələnən məscid adları Validə sultan məscidləridir və xəritədən başımı qaldırıb indi İstanbula göz gəzdirirəm. Uzaqdan ucalan minarələr məndə İstanbul haqda ilk təəssüratı yaratdı. "İstanbul məscidlər şəhəridir".

Otelimizi dalanlarda, küçələrdə çox axtarsaq da tapmadıq. Küçələr çox hündürdə, iti bucaq altında salınmışdı. Hündürdə yerləşən bu məhlələr insanı vahiməyə gətirirdi. Hətta elə küçə var idi ki, qalxanda sanki dağa dırmaşırdın. Mustafa bəydən qışda qar yağanda adamların buradan necə düşdüklərini soruşdum. O da gülərək, "Günelcim, kendin cevab verdin, insanlar burdan düşürlər". Yadıma düşdü ki, "düşürlər" türk dilində yıxılmaq mənasındadır. "İstanbul — təpələr şəhəridir".

Nəhayət, bəxtimiz üzümüzə güldü. Otelimiz axtardığımız dar küçələrdə deyil, düz Taksim meydanın yanında imiş. 7 mərtəbəli, hər qatında dörd otağı və iki restoranı olan yarı qaranlıq otelin foyesində və nömrəmizdə diqqətimi Faruk Cimokun sulu boya ilə çəkdiyi rəsmlər cəlb etdi. Tablolardakı restoranı, şəhər mənzələrini görəndə, nədənsə, "9 ay" filmindən bir fraqment yadıma düşdü.

Filmdə dəniz mənzərəsini çəkən adam o birisindən soruşur:

— Necədir?

— Bu şəkil hansısa otelin sifarişi ilə çəkilir?

— Düz deyirsən, bu, ancaq otellərə yarayır.

Rəssam rəsmini molbertdən götürüb, dənizə tullayır.

Rəssam üçün ən böyük təhqir onun rəsmlərinin otel mədəniyyətinə bənzədilməsidir. Otel rəsmləri bayağı və sənətdən kənar hesab olunur. Bu rəsmlər daha çox divar kağızlarının rəngini, fakturasını tamamlayan rəsm növüdür. Yəni əsl sənətlə əlaqəsi olmayan sadəcə müştəri rahatlığını tamamlamaq üçün çəkilmiş rəsmlərdir.

Yol yorğunluğumuzu canımızdan çıxarmaq üçün günorta yeməyinə getməyi qərara aldıq. "Çox lezzetli olur yemekleri" deyib Mustafa bəy bizi Taksim meydanındakı Osmanlı mətbəxi verilən bir restorana apardı. Restoranın interyeri Osmanlı dövrünə məxsus rəsmlərlə, fiqurlarla bəzədilmişdi. Menyuya nəzər yetirəndə bir qədər şaşırdıq: burada əsasını yağlı təamlar təşkil edirdi: yağda bişirilmiş mal, qoyun, balıq, toyuq əti, qızardılmış tərəvəzlər, kərəviz, badımcan və s. Bayaqdan havanın soyuqluğu məni narahat edirdisə, indi bu məni əməlli başlı sevindirirdi. Çünki istidə bu qədər yağlı yeməyi mədəyə yola salmaq çətin olardı. Deyəsən, İstanbul əhli də o anlarda mənimlə həmrəy idi: restoran bir ucdan elə hey dolub boşalırdı. "İstanbul — 3 gündə kilo aldıra biləcək qədər dadlı mətbəxi olan şəhərdir".

Ağır yeməkdən sonra Taksim meydanı boyu gəzintiyə çıxdıq. Taksim meydanı bir növ bizim "Torqovı" küçəsinin ruhuna görə atası sayıla bilər. Küçə boyu göz oxşayan vitrinli mağazalar, səyyar musiqiçilər, əski kitablar satan kitabçılar, arı pətəyi kimi qaynayan kafelər, turistləri yoldan çıxarmağa çalışan dönərçilər, hüzünlü dilənçilər, zarafatcıl dondurmaçılar insana İstanbulun ruhunu anladır. Havadan Cemal Süreyya, Ece Ayhan, Atilla İlhan, Orhan Vəli şeirlərinin qoxusu duyulur, küçə boyu Orxan Pamuk, Elif Şafak cümlələri gəzişirdi. Taksim meydanı qələbəlikdir. Burada hərə öz hekayəsi ilə dolanırdı. Hər insanın geyimin rəngi, qoxusu, baxışı, dialoqlarındankı qulağına çatan parçaları sanki bir roman parçası idi. Meydan başlayandan bitənə qədər, elə bil o xəyali romanının izi ilə gedirdin. Romanın da adı qoy olsun "Taksim". Taksim meydanı macəra, əyləncə, rutin həyatdan qaçıb, bura sığınan gənclərlə doludur. Onlar burada siqaret çəkir, içki içir, kitab oxuyur, musiqi dinləyirlər. "İstanbul — macəra diyarıdır".

Türk qəhvəsi içmək üçün Qalata qalasının yanındakı "İrfan" adlı kafeyə yollandıq. Qalata qalası istanbulular üçün çox önəmlidir. İstanbulun fəthi bu qalanın açarlarının alınması ilə bitmiş hesab edilir. Türk qəhvəsi fincanını əlimə alıb, yarı zarafat yarı ciddi sağlıq dedim. "İçək Fatih Sultan Mehmetin ruhuna".... Türk qəhvəsini şəkərli sifariş etsək də, dadı çox şəkərsiz, tünd idi. Bəzi istanbulluların turistləri sevməyən tünd baxışları kimi...

"Hayat o kadar berbat olamaz," diye düşünürüm bazan. "Ne de olsa, sonunda insan Boğaz'da bir yürüyüşe çıkabilir." (Orhan Pamuk)

Pamukun bu sözlərinə Boğazı kəşf etdikdən sonra daha rahat şəkildə inandım. Gəmiylə çıxdığımız Boğaz turu həqiqətən boğazımı qurutdu, birinci və ikinci körpülərin altından keçərkən möhtəşəmlik duyğusu, kiçik dalğaların maviliyi, yol boyu bizi müşayiət edən qağayılar inanılmaz tablo idi. Mərmərə dənizi sanki sənin kədərlərini əlindən alacaqmış kimi qarşında sərilmişdi. Bu gəzinti meditasiya kimi idi, sahilə enəndə qağayılar tək fikirlərindən, buxovlarından azad şəkildə enməliydin. Yoxsa boğaz səni bağışlamazdı. İkinci boğaz körpüsünü uzaqdan seyr edəndə Pamukun məşhur romanında "İntihar körpüsü" deyilən hissəsinə baxdım, yanından gəmimiz keçəndə isə aşağı baxmağa qorxdum. Qorxdum ki, öz avtomobili ilə intihar etmək üçün özlərini boğazın sularına qərq etmiş insanların simalarını mavi suların arasında seçə bilərəm.

Mustafa bəy axşam yeməyi üçün bizi Çiçək passajında yerləşən balıq restoranına apardı. Masaya dəniz qidalarında hazırlanmış müxtəlif çeşiddə təamlar gəldi: qızardılmış kilkə, heydəriyyə, humus, zeytun əzməsi, dəniz levrəyi, palamut izgara. Şam etdiyimiz müddətdə Mustafa bəy bizə bu restoranın əski sahibi haqqında maraqlı məlumat verdi. Restoran sahibi hündür, yaraşıqlı, çox kübar bir bəy olub. Hətta deyilənə görə Aqata Kristi vaxtilə İstanbula səfər edəndə bu bəylə eşq macərası da yaşayıb. Yeməkdən sonra Mustafa bəy bizi Aqata Kristinin qaldığı otelə də apardı. Bu otelin bizim oteldən cəmi bir ulduzu artıq idi, yəni 5 ulduzlu idi. Buradanın böyük salonunda ziyafət verilirdi, bahalı qiyafələrdə xanımlar, bəylər əllərində şampan qədəhləri ilə salonda gəzişirdilər. Foyenin tam ortasında qırmızı rəngdə rahat divan qoyulmuşdu. Orada oturub ətrafı seyr etməyə başladım, Aqata Kristinin bu divanda oturub Erkül Puaronun tədqiq edəcəyi hansı qətli planlaşdırması haqda fikirlər yürütməyə başladım, amma divanla üzbəüz yerləşən güzgünü görüb daha romantik fikirlər məni çuğladı. Yəqin o, bu güzgüyə baxıb restoran sahibi ilə görüşə hazırlaşırmış, ola bilsin ki, dodağından kənara çıxmış dodaq boyasını salfetlə bu güzgüyə tamaşa edəedə silib.

Aya Sofya, Sultan Ahmet, Topqapı sarayını ziyarət etsək də içəriyə keçmək üçün uzun növbələri görüb, elə kənardan tamaşa edib, foto çəkməklə qane olduq. Məşhur "Möhtəşəm yüz il" serialından sonra daha çox "məhşurlaşan" Hürrəm Sultanın tikdirdiyi su çeşməsi və hamam, əsasən, qadınlar və kiçik yaşlı qız uşaqları üçün poza məkanına çevrilmişdi. Bəzi turistlər üçün "İstanbul — Hürrəm sultanın şəhəridir".

Taksim meydanında yerləşən çoxsaylı kitab mağazalarından birinə gedib dostlarımın sifariş etdikləri disk və kitabları axtarmağa başladım. Bəzilərini tapandan sonra özüm üçün Orhan Pamukun "Məsumiyyət muzeyi" romanını aldım. Bu kitab dəfələrlə əlimə rus dilində düşsə də, inadkarlıqla türkcəsini oxumaq istədim. Bir ingilis turistin mənimlə yanaşı bu romanı istəməsi, yəqin ki, mənə seçimimdə haqlı olduğuma bir işarə idi. O, kitabı istəyəndə romanın adı yadına düşmürdü, eləcə "museum" deyə-deyə qalmışdı. Mən yardımçı oldum, "İnnosense muesum" deyib satıcıdan kitabın ingilis variantında olub- olmadığını soruşdum, o, təəssüflə "xeyr" dedi. O an arzuladım ki, neçə illərdən sonra bir kitab mağazasında turistlərin gəlib məndən yazar dostlarımın əsərlərinin ingiliscə variantlarını soruşsunlar. Yazar dostum Musa Əfəndinin təkidinə baxmayaraq, Orhan Pamukun əsərinin şərəfinə açdığı "Məsumiyyət muzeyi"nə elə kənardan seyr etməklə kifayətləndim. Oxumadığım romanın muzeyinə tamaşa etmək alacağım zövqu korlaya bilərdi. Muzeyə səfərimi və Füsunun itmiş sırğasını əldə etməyi növbəti səfərimə saxladım.

**"İstaNbul lavanda çiçəyi və qovrulmuş şabalıd qoxuyur".**

Səs-küylü Taksimdən sonra otelimizin yarıqaranlıq, tək ofisinatlıq kafesində gecəyarısı oturub, qəhvə içmək, bədəninə, paltarlarına, saçlarına, bir sözlə vücuduna yapışmış balıq qoxusunu qovmaq istədim. Qəhvə içsəm də, burnumda lavanda çiçəyinin ətri gəlirdi. Parfüm dükanlarından lavanda aromatı, küçələrdən, meydanlardan isə qovrulmuş şabalıd qoxusu alırdım. Bu qoxular adamı lap uzağa aparırdı- kənddə saciçi qovurduğumuz şabalıdlar yadıma düşürdü. Kəndimizlə İstanbulu birləşdirən bu eyni qoxu 20 milyonluq əhalisi olan İstanbulu mənim üçün kəndimiz qədər kiçildirdi. Elə bilirdim, bu tini burulsam, dayılarımı, əmilərimi, Boğazdan o taya boylansam babamgilin evini görə bilərəm. İnsanların üzündə tanış cizgilər axtarırdım.

İstanbulun "yatan" vaxtını görmədim. Ona görə şəhəri səhər, günorta və gecəyə böldüm. Hansı ovqatında istəsən küçələrində gəzə bilərsən. Bəzən istəmədən belə qulağına Teomanın, Emre Aydının, Sezen Aksunun musiqiləri gəlir, İstanbul səni öz kədərində boğmaq istəyir. Yaxınlıqdakı stadiondan Sertab Erenerin canlı konsertində müğənni hayqırırdı: "Dinlə məni, bir az sən, sən, sən, İstanbul sevər səni, sən məni əgər sevərsən". Mən İstanbulu sevdim, görəsən, o da məni sevdimi?

**P.S.** Yuxarıdakı dialoq mən və dostum Zərdüşt Şəfi ilə aramızda baş vermişdi. Kitabı ona qaytaranda İstanbulu görmək istədim. Ona demişdim ki, şəhəri gəzib təəssüratlarımı səninlə bölüşəcəm. İstanbulu gəzərkən bəzən onun gözləri ilə tamaşa etmək istəsəm də alınmadı. Onun yoxluğunu hərfbəhərf əvvəl dilimə gətirdim, sonra beynimə yeritmək istədim. Qəhərləndim, kövrəldim... Kədərimi Boğazın sularına qovmaq üçün ona nağıl danışmağa başladım. "Biri var idi, biri yox idi, bir dostum var idi və səni çox görmək istəyirdi..."

# Mətbuat Şurasında Zakir Fəxrinin "Rekviyem" kitabının təqdimatı keçirilib






Bu gün Azərbaycan Mətbuat Şurasında tanınmış şair-publisist, Zakir Fəxrinin "Rekviyem" əsərinin təqdimatı keçirilib.

Mərasimi açan MŞ sədri Əflatun Amaşov Zakir Fəxri yaradıcılığının müxtəlif aspektləri barədə məlumat verib, onun publisistika və jurnalistikaya yaxınlığı ilə də diqqəti çəkdiyini bildirib. Təqdimatı keçirilən əsərin qəmin, qüssənin bədii yaradıcılıqda yüksək sənətkarlıqla tərənnümü olduğunu vurğulayan Şura sədri bildirib ki, onun qeyri-adiliyini səciyyələndirən başlıca xüsusiyyət poeziya və nəsrin vəhdətindən yaranmasındadır.

Müəllifi təbrik edən Ə.Amaşov ona rəhbərlik etdiyi qurumun fəxri diplomunu təqdim edib.




Tədbirdə çıxış edən Zakir Fəxrinin sənət dostları və yaxınları — şair Musa Yaqub, Azərbaycan Respublikasının Milli Məclisinin üzvləri Musa Quliyev və Aqil Abbas, Bakı Dövlət Universitetinin professoru Cəmil Həsənli, kütləvi informasiya vasitələrinin rəhbərlərindən "Olaylar" qəzetinin və eyni adlı agentliyin rəhbəri Yunus Oğuz, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, tanınmış yazıçı, şair və publisist Əjdər Ol, Dilçilik İnstitutunun direktoru, professor Fəxrəddin Veysəlli, pedaqoq Aydın Kərimov, Xalq artisti Zaur Rzayev və başqaları bildiriblər ki, Zakir Fəxri yaradıcılığındakı ən mühüm məqam sənətkarın öz dərdini, övlad acısını ictimailəşdirmək bacarığıdır. Bu bacarığın hər sənət adamına nəsib olmadığını deyən natiqlər müəllifin qayəsi dərddən yoğrulmuş nümunələrində millətin faciəsinin böyük ustalıqla təsvir edildiyini dilə gətiriblər. Onlar bir yaradıcılıq xəzinəsi ilə əbədi olaraq yaddaşlarda qalan insanların mövcudluğuna diqqət çəkərək şairin dillər əzbəri olan "Qalmaz belə, qalmaz dünya" şeiri ilə bu statusu qazandığını vurğulayıblar.

Çıxış edənlər onu da bildiriblər ki, müasir Azərbaycan ədəbiyyatının təmsilçilərinin yaratdığı əsərlərin, Z.Fəxri kimi sənət adamlarının irsinin gənc nəslə çatdırılması son dərəcə önəmlidir. Çünki bu irs əsrlərin süzgəcindən keçib gələn ruha, vahidlik, bütövlük ruhuna söykənir. Bu ruh isə milləti tarixin müxtəlif sınaqlarından çıxararaq yaşadır, dünyaya tanıdır.

Qeyd edək ki, Zakir Fəxrinin bundan öncə, 2008-ci ildə işıq üzü görmüş "Qalmaz belə, qalmaz dünya" adlı kitabı Ali Dövlət Mükafatına — "Qızıl kəlmə"-yə layiq görülüb.

# "Həyatın qəfəsi"ndən duyulan

**Bülbüli-zarəm,**
**deyil bihudə əfğan etdiyim,**
**Qalmışam nalan qəfəs qeydində,**
**gülzar istərəm.**

Füzuli dühasının əsəri olan bu misralarda olduğu kimi, beləcə, hər kəs bir şey istədi bu dünyadan. Amma qəfəs içində arzular ağuşunda üzənlərin istəyi daha böyük oldu deyəsən.

Tanrı sevdiyi bəndələrini Yer üzünə göndərəndə onlara yaşamaq üçün ürək, duyub yaratmaq üçünsə qəlb bəxş etdi. Bəzən yaradan bəndəsinin qəlbi döyünən ürəyinin məhvərinə sığmadı: aşdı-daşdı. Ürək çərçivəsindən, bədən tutumundan, məkan sərhəddindən çıxıb səmaların ənginliyinə pərvazlandı. Pərvazlandı ki, yenidən öz qəfəsinə dönəndə gördüyünü duyduğu kimi yaratsın. Yaradan insana pərvaz etmək üçün qanadlanmaq vacibmidir? Onun qəlbi, azadlığa doğru süzən bir qanaddır. Qanadlarsa ruha bağlı. Qanadları almaq olar, taxmaq olar. Amma sənin ürəyində qəlbin yoxsa nə görməyə gözün olar, nə deməyə sözün. Qanad nədir? Sevinc və ya kədərmidir, ya bədbəxtlik və yaxud da əlçatmayan xoşbəxtlikdir?

Tənha, kimsəsiz gecədə düşüncələr bölüşməyə qəlb aradım. Aradım ki, sual edib, cavab alım. Həmdəmimi burda buldum. Bədbinlikdən çox-çox uzaq, əlvan çiçəklərdən çələng, yaşamaq eşqilə süzən, məhəbbətin özünə də bəzək verən həm mübariz, həm də zərif qadın qəlbi — həyatın dar qəfəsinə sığışmayan Flora Nacinin düşüncəsi:

**Deməyin ki, qanadsızlar bədbəxtdirlər,**
**Qanad ilə ölçülürmü bəxt məgər?!**
**Xoşbəxt edib qanad kimi?...**
**Elə olsa,**
**Həyatın dar qəfəsində**
**Səma haqda düşünməyən**
**Qanadlılar xoşbəxtdirmi?!**

F.Nacinin xarakterində və poeziyasında olan ziddiyyət isə mənə dolu bərbəzəkli xarici görünüşü ilə bəzəksiz, sözçülükdən uzaq dərin fəlsəfi düşüncənin misralara çevrilməsindədir:

**İnsanlar məhkumdur — dünyaya gəlib,**
**Yaşasın, sonra da dünyadan köçsün.**
**Yoxluqdan Dünyaya gəlirsə necə,**
**Dünyadan Yoxluğa gedir eləcə...,**

— deyən şairə Yoxluq adlandırdığı məkanı yaradan və qəbul edən bir aləm kimi canlandırır. Məgər bu deyimin özü estetik anlayış çərçivəsindən kənara çıxan bir haşiyə deyilmi? Adətən şairələr güldən-çiçəkdən, gözəllikdən, vətəndən, sevgidən söz açırlar. F.Naci yaradıcılığında buna bənzər şeirlərə rast gəlmədim. Şairə yalnız azad düşüncələrini, hətta sevgisini haşiyəsiz, qəlibsiz dilə gətirir.

Həcm etibarı ilə çox da böyük olmayan bu şeirləri düşüncələr toplusu adlandırsam yanılmaram. Onda insanın ilk yaranışı ilə yaşayıb o biri dünyaya can atmasının müəmmalı təzahürü var. Zərif qadın qələminin məhsulu olan bu şeirlərdə böyük problemlər axtarışı insanı təəccübləndirməyə bilmir. Bu hallarda dərk edirsən ki, onun dayandığı mənəvi ucalıq və özünüidrak fəlsəfəsi fikrən və ruhən saflıq və səmimiyyət təcəssümüdür.




**Həyatın dərdlərin hiss eyləyərək,**
**Ağlayır, Dünyaya insan gələrək.**
**O biri Dünyaya böyük ümidlər**
**Yollanır qəribə bir təbəssümlə,**

— söyləyən şairə insanın əzabsız sandığı və bel bağladığı o biri Dünyada ümidlərin doğrulacağına inamla yanaşmaq istəyir.

Bu kitabı oxuyanda şairənin çəkilən çiyinləri, etirazla bulanan başı, uşaqlara xas büzülən dodağı gözlərim önündə canlanır və düşünürəm ki, hamının işlətdiyi adi sözlər Floranın qəlbindən keçib necə şeirləşmiş, necə qeyri-adiləşmişdir. Çünki onun malik olduğu səmimiyyət və onun azad təqdimatı oxucu qəlbinə ən etibarlı açardır.

Flora xanım bizdən yox, bizim asılı olduğumuz zamanı səmərəli xərcləməyə səsləyir. Özü isə vaxtdan geri qalmamaq üçün tələsir:

**Mənim dəli, çılğın könlüm**
**Hey tələsir bütün zaman.**
**Heç rahatlıq vermir mənə**
**Ömrüm boyu bircəcə an.**

Ötən anların səmərəli xərclənilməsi də onun düşüncələrində dayanmadan fırlanır. Onun üçün hər bir son başlanğıcdır. Ruhundakı mübarizlik əzmini bizlərə də belə təqdim edir:

**Mənə elə gəlir, yetişdim sona,**
**Ancaq görürəm ki, başlanğıcdayam**
**Axır ki, anlayam, gərək anlayam**
**Nəyinsə sonunu duyduğum zaman**
**Nəyəsə yenidən başlamalıyam.**

Bəli, onun "dəli könlü" hər bir şeyi yenidən başlamağa, "Ötən qatarlar" şeirində dediyi kimi "uzaqlara ünvanlanmış qatarların pəncərəsi arxasında ona bəlli olmayan insan sevinci, insan kədərini" görməyə tələsir. Bütün istəklərinə yetmək üçünsə onun ürəyinə sığışmayan qəlbi, qəfəsinə sığışmayan ruhu var.

Kitabı oxuyarkən şeirlərdən çox Floranın öz taleyi ilə, qismətinə düşən bədbəxt, xoşbəxt dəqiqələrlə tanış oldum. Lakin talenin hər üzündə onu nikbin gördüm. Bir şeyi anladım ki, o yalnız ilham pərisi ilə üz-üzə dayananda ciddiləşib, kədərini ağ kağıza yağdırır. Onun sevgi şeirlərində özünə bir inam var. Həyatda onu bir qadın kimi sevməmək mümkün deyil. Ondan yalnız sevə-sevə ayrılmaq olar. Flora özü bunu dərk edərək deyir:

**Qayıt, baxım gözlərinə,**
**Orda sevgi hiss etməsəm,**
**Səni özüm yola salıb,**
**Vidalaşıb əfv edəcəm.**

Bu misraları oxuyarkən istər-istəməz düşünürsən ki, İlahi, bu qədər böyük qəlb kiçik bir ürəyə necə sığsın? Bu qəlbin qəfəsi darlıq etməməkçün dünya boyda olmalıdır. Elə dünya boydadır da.

Lakin sonda şairənin əyilməz nikbinliyi kədərə qalib gəlir. O, özünəməxsus ruh yüksəkliyi ilə:

**Nə vaxtsa yanına mən gələcəyəm,**
**O zaman səninlə görüşəcəyəm,**
**Onda sənzilikdən əl çəkəcəyəm,**
**Hələ ki, sənsizlik çox üzür məni.**

Bax, budur əsl sevgi, əsl ümid, tükənməz səbir və yaşanan ömrün mənasını dərk etmək. "Həyatın qəfəsi"ndə həyat salnaməsi əks olunub. Bu salnaməni duyub yaşamaq ömür səhifəsinin 6 onluğunu xırdalamış Flora Naciyə məxsusdur. Bu il Flora xanımın yubileyidir. Mübarək bir tarix — 10 iyun 2012-ci il. Bu illər üstünə neçə-neçə illərin gəlişini arzulayaq. Qoy onun nikbinliyi qəlbini, gözəlliyi çöhrəsini tərk etməsin. Flora xanım 16 yaşından Bakı Slavyan Universitetinin daimi sakinidir. Filologiya elmləri doktoru, professor, yüzlərlə elmi-publisistik məqalələr və neçə-neçə monoqrafiyalar müəllifi, "Yol" və "Rus dili və ədəbiyyatı" jurnallarının baş redaktorudur. Lakin zaman və məkan anlayışında ona məxsus bir zaman və bir məkan qəfəsi var. Bu ruh ilə o, həmişə 16 yaşlı qız şuxluğunda sevərək seçdiyi BSU-nun azad qəfəsində qalacaq. Qoy bu yaşın şuxluğu onu tərk etməsin, məkanı isə dar gəlməsin.

**Məni tərif edən o qədər sözdən**
**Sənin bircə kəlmən mənə bəs eylər, —**
**deyən Flora xanıma onu sevənlər adından...**
**Bütün varlığınla necə varsanda,**
**Eləcə qalmağın bizə bəs eylər!...**

— deyək.

Sən həyata, həyat sənə yaraşır. Yaşa, yarat, uğurlar olsun!...

**Xanım SULTAN**

# *Mahir Şükürov:* "Şans 60/40 –a "Neftçi"nin tərəfindədir"

**Bu gün Avropa Liqasının qrup mərhələsində "Neftçi" İtaliyanın "İnter" komandası ilə qarşılaşacaq.**

**Oyun ərəfəsində paytaxt klubunun müdafiəçisi Mahir Şükürov Qol.Az saytının suallarını cavablandırıb.**



***— "İnter"lə görüşə hazırlıqlar necə gedir?***

— Artıq doqquz gündür ki, bu matça ciddi hazırlaşırıq. Klubumuzun prezidenti Sadıq Sadıqov məşqlərimizdə şəxsən iştirak edir. Hər bir futbolçunun problemləriylə yaxından məşğul olurlar ki, heç birinin çətinliyi olmasın. Bilirik ki, bizi çətin bir görüş gözləyir. Ona görə də hər kəs məşqlərdə məsuliyyətlə çalışır.

***— Bəs psixoloji cəhətdən necə, komandada problem yoxdur ki?***

— İstər-istəməz güclü komandaya qarşı oynayanda görüşə daha yaxşı köklənirsən. Özünü daha yaxşı tərəfdən göstərmək üçün 2-3 dəfə çox güc sərf etməyə çalışırsan. Hazırda komandadakı abhava yüksəkdir. Bu baxımdan, heç bir psixoloji problem yoxdur.

***— Klub rəhbərliyi "İnter"lə oyunda qarşınıza hansı məqsədi qoyub?***

— Biz futbolçular da istəyirik ki, qalib gəlib klub rəhbərliyini, azarkeşləri sevindirək. Bildiyimizə görə, artıq biletlərin səksən faizi satılıb. Bu da stadionda əsl anşlaqın olacağından xəbər verir. Klub rəhbərliyi bizdən bu görüşdə qələbə istəyir. Düzdür, öncədən qalib gələcəyimizi dəqiq söyləmək olmaz. Çünki rəqibimiz asan məğlub olacaq komanda deyil. Ancaq qalib gəlməkdən ötrü nə gücümüz varsa, ortaya qoyacağıq.

**— Bəs, heç-heçəni necə qənaətbəxş hesab edəcəksinizmi?**

— Heç-heçə də pis nəticə olmaz. Çünki rəqibimiz dünya səviyyəli komandadır.

***— Yəqin ki, rəqibinizi təhlil etmisiniz. "İnter haqda fikrin necədir?***

— Rəqibin ən güclü mövqeyi hücumdadır. Çünki həmin mövqedə Milito və Kassano kimi ulduz futbolçular oynayırlar. Onların hər ikisi son çempionat oyununda "Fiorentina"nın qapısına qol vurmağı bacarıblar. Çox əla formadadırlar. Birdə mərkəzlərini güclü hesab edirəm. Lakin müdafiə xəttləri sabit çıxış etmir. Baş məşqçinin verdiyi taktika sayəsində bu boşluqdan yararlanmağa çalışacağıq.

***— Bu iki adlı-sanlı hücumçuya qarşı oynamaqdan çəkinmirsən ki?***

— Mənim 18 yaşım yoxdur ki, onlardan çəkinəm. Karyeram ərzində kifayət qədər güclü futbolçulara qarşı mübarizə aprmışam və xeyli təcrübəyə malikəm. Mənim üçün problem deyil. Əslində daha əzmkar mübarizə aparacağam.

***— Rəqibinizin müdafiəçilərinin bir neçəsinin yaşlı olması işinizə yarıya bilərmi?***

— Bilirsiniz, yaş söhbəti Azərbaycanda qabarıq göstərilir. Lakin Avropada belə deyil. Əksinə daha təcrübəli futbolçuya ehtiyac duyurlar. Əgər bu gün Zanetti formadadırsa,yaxşı nəticə göstərirsə, deməli, əsas heyətdə oynamağa layiqdir. Futbolda təcrübə çox şey deməkdir.

***— İtaliya mətbuatı "İnter"in bir çox aparıcı üzvünün Bakıya gətirilməyəcəyi haqda xəbər yayıb. Bunu həftəsonu "Milan"la baş tutacaq derbiylə əlaqələndirirlər. Bu amil qələbə qazanmağınıza təkan ola bilərmi?***

— "İnter"in ehtiyat heyətdəki futbolçuları da güclüdürlər. Ümumiyyətlə, belə bir komandada zəif futbolçu ola bilməz. Əksinə onlar əsas heyətdə yer qazanmaq üçün maksimum güc sərf edəcəklər.

***— Qələbə şanslarınızı necə dəyərləndirirsən?***

— Fikrimcə, şanslar 60/40 —a "Neftçi"nin tərəfindədir.

**Əli HƏYATİ**

# "İnter"lə oyuna daha yüksək motivasiya ilə çıxırsan, nəinki "Partizan"la"

**Avropa Liqasının qrup mərhələsinin II turu çərçivəsində "İnter"i qəbul edəcək "Neftçi"nin qapıçısı Saşa Stamenkoviç oyun öncəsi Serbiyanın "Sportski" jurnalına müsahibə verib.**

**Qol.Az həmin müsahibəni sizə təqdim edir.**



***— Başlayaq lap əvvəlldən. Cənubi Kiprdə APOEL-i məğlub etməyiniz çoxları üçün gözlənilməz oldu...***

— Bəli, bu, çox böyük uğur idi və Azərbaycan futbolu tarixində ilk dəfə hansısa klub Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazandı. Bunun özü də ölkə klubları arasındakı rəqabəti artırdı. Həmin qələbəni gecə yarısına kimi qeyd etdik. Oyuna gəlincə, sübut etdik ki, APOEL-dən güclüyük. Unutmayaq ki, rəqib ötən mövsüm Çempionlar Liqasında 1/4 finala qədər getmiş bir komandadır.

***— APOEL-in baş məşqçisi postunda çalışan həmvətənin üçün təəssüf hissi keçirdin?***

— Hardasa hə. Yovanoviç yaxşı məşqçidir. Onun məğlubiyyətinə təəssüfləndim. Ancaq inanıram ki, o, qısa zamanda özünü və komandasını toparlaya biləcək.

***— Avropa Liqasının qrupunda da həmvətənlilərinlə üz-üzə gəldin...***

— "Partizan" yaxşı komandadır. Ancaq etiraf edim ki, "İnter"lə oyuna daha yüksək motivasiya ilə çıxırsan, nəinki "Partizan"la.

***— İtaliya nəhəngini büdrədə biləcəksiniz?***

— Prinsipcə, hamı qrupun favoriti kimi, "İnter"i göstərir. Ümumiyyətlə, "İnter" kimi komandalar istənilən qrupda favorit göstərilir. Qalan komandalar isə həmişə ikincilik uğrunda mübarizə aparırlar. Ancaq təbii ki, meydançaya çıxırsansa, uduzmaq üçün çıxmırsan. Mübarizə aparmalısan, futbolda hər şey olur.

***— Vladimir Vermezoviçi ("Partizan"ın baş məşqçisi) Bakıda nə gözləyir?***

— "Neftçi" 10 ildən çoxdur avrokuboklarda evdə uduzmur. Bütün rəqiblərə qarşı çox istəkli və əzmkarlıqla oynayırıq. "Partizan"a qarşı da bu cür oynayacağıq və məqsədimiz onları Bakıda məğlub etməkdir. Bir sözlə, Vermezoviçi buraya asan səfər gözləmir.

# *Georgi Çixradze:* "Zirvədə qalmaq çox çətindir"



"Bu gün komandamın zirvədə olmasını təsadüfi saymıram. Çünki bu pilləyə qalxmaq üçün çox əziyyət çəkmişik və bu gün də çəkirik. Futbolçularım əzmlə məşq edirlər, oyunlara çıxırlar və çəkdikləri zəhmətin bəhrəsini görürlər. İştirakımızla olan oyunları izləyənlər də bunun şahidi olublar. Odur ki, bu gün "Simurq"un zirvədə olmasını qanunauyğun hesab edirəm".

Bu sözləri Qol.Az-a açıqlamasında Azərbaycan Premyer Liqasının hazırkı lideri Zaqatalanın "Simurq" klubunun baş məşqçisi Georgi Çixradze deyib.

Gürcüstanlı mütəxəssis zirvədə qərarlaşmağın çətinliklərindən də danışıb: "Etiraf edim ki, birinci olmaq çox çətindir. İlk növbədə hamı səni ciddiyə alır, sənə qarşı ikiqat güclə mübarizə aparırlar. Bundan başqa, bir çox iddialı klublar var ki, çempionluq uğrunda mübarizə aparırlar. Odur ki, zirvədəki yerimizi əlimizdə saxlamaq üçün bundan sonra daha böyük qüvvə sərf etməliyik. Hər halda, nə gücümüz, bacarığımız var ortaya qoyacağıq ki, üst pillələrdən qopmayaq. Qarşımıza qoyulan əsas hədəf ilk "altılığ"a düşməkdir".

# "Barselona"nın kapitanı yenə sıradan çıxdı



Çempionlar Liqasının qrup mərhələsi çərçivəsində az öncə başa çatmış "Benfika" — "Barselona" matçında xoşagəlməz hadisə yaşanıb.

Matçın 77-ci dəqiqəsində "Barselona"nın kapitanı Karles Puyol yenidən zədələnərək sıradan çıxıb.

Rəqibi ilə mübarizədə qolu üstə yerə düşən Puyol uzun müddət əlini tərpədə bilməyib. Sınıq ehtimalı ilə yaxınlıqdakı xəstəxanaya çatdırılan futbolçunun dirsəyinin çıxdığı aşkar olunub. Bununla belə, Puyolun hansı müddətə yaşıl meydanlardan uzaq qalacağı məlum deyil. Qeyd edək ki, "Benfika" — "Barselona" oyunu 2:0 hesabı ilə Kataloniya təmsilçisinin xeyrinə başa çatıb.

## *Foqts:* "O, Bekhem kimi də edə bilərdi"

Azərbaycan milli komandasının baş məşqçisi Berti Foqts Almaniya futbolunun ulduzlarından olan Mixael Ballakın karyerasını başa vurmasına münasibət bildirib.

O qeyd edib ki, Ballak bundan böyük futbolda istədiyi oyunu sərgiləyə bilməyəcəyini başa düşüb.

"Bu, doğru qərardır. O karyerasını Avtraliyaya gedib davam etdirməməklə düz etdi. Bu gün bir çox avstraliyalı futbolçu Avropada oynamaq istəyir. Bəlkə də Ballak da Devid Bekhem kimi iki il ABŞ-da oynaya bilərdi. Bu, yaxşı olardı" — deyə Foqts bildirib.

Onun sözlərinə görə, Ballak bundan sonra Almaniya futboluna bir məşqçi kimi də fayda verə bilər.

## *Zanetti:* "Neftçi" ilə oyun bizim üçün vacibdir"

"İnter"in futbolçusu Havyer Zanetti İtaliya mətbuatında "Neftçi" ilə Avroliqa oyununun onlar üçün ciddi əhəmiyyət kəsb etməməsi haqda fikirlərə münasibət bildirib.

Zanetti qeyd edib ki, həm "Neftçi", həm də bu oyundan üç gün sonra "Milan"a qarşı A seriyasında keçiriləcək matç onlar üçün vacibdir.

"Biz "Neftçi"yə qalib gəlməliyik ki, Avropa Liqasında liderliyi ələ alaq. Bundan sonra isə "Milan"la derbi matçına yaxşı köklənməliyik" — deyə o, "Sky sport"a müsahibəsində bildirib.

## "İnter"in prezidenti Bakıya həm də biznes qurmağa gəlib

İtaliyanın "İnter" klubunun prezidenti Massimo Moratti də komanda ilə birgə Bakıya gəlib. Lent.az-ın "Leggo" qəzetinə istinadən verdiyi məlumata görə, Morattinin səfəri təkcə "Neftçi"yə qarşı oktyabrın 4-də keçirəcəkləri Avropa Liqasının oyunu ilə bağlı deyil.

İtaliyanın nəhəng neft maqnatı Azərbaycan paytaxtında biznes fəaliyyəti imkanlarını da araşdıracaq. Onun fikrincə, keçmiş SSRİ respublikasında neftlə əlaqədar bir sıra biznes sahələri mövcuddur. Bu isə Morattinin yeni sərmayələr qoymağa sövq edə bilər.

Qeyd edək ki, Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək "Neftçi" — "İnter" matçı saat 21:00-da başlanacaq.

## "Neftçi" dünya reytinqində irəlilədi

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) klubların yeni reytinq cədvəlini açıqlayıb.

Siyahıda ölkəmizi yenə "Neftçi" klubu təmsil edir.

Tarixi ərzində ilk dəfə olaraq Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanan "Neftçi" yeni dünya reytinqində irəlilyib. Son Azərbaycan çempionu ötən ayla müqayisədə 46 pillə irəliləyərək 78 xalla 259-cu yerdə qərarlaşıb.

Kamerunun "Kotonsport", Perunun "Universidad", Fransanın "Tuluza", İngiltərənin "Vest Bromviç", Avstraliyanın "Qosfrod", İspaniyanın "Osasuna" və İtaliyanın "Kataniya" klubları da "Neftçi" ilə 259-cu pilləni bölüşdürürlər.

"Neftçi"nin Avropa Liqasının qrup mərhələsindəki rəqiblərindən "İnter" (İtaliya) 28-ci, "Rubin" (Rusiya) 95-ci, "Partizan" (Serbiya) isə 105-ci olub. Ümumilikdə 400 komandanın yer aldığı siyahıya yenə İspaniyanın "Barselona" klubu başçılıq edir.

Kataloniya təmsilçisi 343 xalla 1-ci, Çilinin "Universidad" klubu 300 xalla 2-ci pillədə qalıb. Argentinanın "Boka Xunyors" klubu isə 286 xalla Madrid "Real"ını 4-cü pilləyə endirib.

## Daha bir ulduz futbolçu karyerasını başa vurdu



Almaniyanın ulduz futbolçularından olan Mixael Ballak karyerasını başa vurub.

Bu barədə futbolçunun özü açıqlama verib.

Əvvəlki formasından xeyli uzaq olan Ballak futbolla vidalaşıb. Özünə dəstək verən hər kəsə təşəkkür edən 36 yaşlı futbolçu karyerasını başa vurmaqla həyatında yeni səhifə açmaq istədiyini bildirib.

Qeyd edək ki, Ballakın son klubu Leverkuzenin "Bayer" klubu olub. Təcrübəli futbolçu Almaniya millisinin heyətində keçirdiyi 98 oyunda 42 qola imza atıb.

**Materialları Anar Cəfərsoy hazırladı**

## Millimiz FİFA reytinqində gerilədi

FIFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. Ötən ayla müqayisədə 4 pillə geriləyən Azərbaycan milli komandası 309 xalla 111-ci mövqedə qərarlaşıb.

Dünya çempionatı — 2014-ün seçmə mərhələsində millimizin rəqibi olan Portuqaliya reytinqdə 3-cü (+1), Rusiya 12-ci (+1), İsrail 82-ci (-7), Şimali İrlandiya 117-ci (+12), Lüksemburq isə 142-ci (-36) yeri tutur.

Növbəti reytinq cədvəli noyabrın 7-də açıqlanacaq.

## "Fənərbağça"nın hücumçusu Premyer Liqa yolunda



"Fənərbağça" klubunun hücumçusu Miroslav Stok karyerasını Rusiya Premyer Liqasında davam etdirə bilər.

Slovakiyalı futbolçu "Anji" klubunun maraq dairəsinə düşüb.

Mahaçqala təmsilçisi Stokun transferi üçün 12 milyon ödəməyə hazır olduğunu açıqlayıb. "Anji"nin baş məşqçisi Quus Hiddink 22 yaşlı futbolçunu komandasında görmək istəyir. Lakin "Fənərbağça" rəhbərliyi bir sıra klubların maraq dairəsində olan Stok haqda qərar verməyə tələsmir.

Qeyd edək ki, Türkiyə klubu Stokun transferi üçün ən azı 15 milyon avro tələb edir. "Anji" rəhbərliyi bu məbləğlə razılaşacağı təqdirdə Stok yanvar ayından Premyer Liqada çıxış edəcək.


## Azərbaycan Respublikası Təhsil Nazirliyi Qərb Universiteti

2012-ci il üçün Universitetin fəlsəfə doktoru proqramı üzrə doktoranturasına və dissertanturaya aşağıdakı ixtisaslar üzrə qəbul elan edir.

### I. Fəlsəfə doktoru proqramı üzrə:

| № | İxtisaslar | İxtisasın şifri | Ödənişli əsaslarla | | |
|---|---|---|---|---|---|
| | | | Cəmi | Əyani | Qiyabi |
| 1. | Dünya iqtisadiyyatı | 5310.01 | 3 | 1 | 2 |
| 2. | Dünya ədəbiyyatı | 5718.01 | 4 | 2 | 2 |
| 3. | Beynəlxalq münasibətlər | 5901.01 | 4 | 1 | 3 |
| 4. | Sistemli analiz, idarəetmə və informasiya işlənməsi | 3338.01 | 1 | - | 1 |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 129 №li "01" iyul 2011-ci il tarixli qərarına uyğun olaraq Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan mütəxəssis) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.**

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi təhsil müddəti 4 ildir.**

**Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.**

**Doktoranturaya sənədlər 17 sentyabr 2012-ci il tarixindən 16 oktyabr 2012-ci il tarixinə qədər qəbul edilir.**

**Qəbul imtahanları 22 oktyabr 2012-ci il tarixindən 21 noyabr 2012-ci il tarixinə keçiriləcək.**

### II. Fəlsəfə doktoru proqramı üzrə dissertantların təhkimolunma planı:

| № | İxtisaslar | İxtisasın şifri | Ödənişli əsaslarla |
|---|---|---|---|
| 1. | Dünya iqtisadiyyatı | 5310.01 | 2 |
| 2. | Dünya ədəbiyyatı | 5718.01 | 2 |
| 3. | Beynəlxalq münasibətlər | 5901.01 | 2 |

**Fəlsəfə doktoru uzrə doktoranturada dissertantlıq yolu ilə təhsil müddəti 4 ildir.**

**Doktorantura və dissertantlıq yolu ilə təhsil almaq üçün aşağıdakı sənədlər təqdim edilir.**

— ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
— kadrların şəxsi qeydiyyat vərəqi;
— tərcümeyi-hal;
— iş yerindən xasiyyətnamə;
— 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
— iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
— çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
— ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
— şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Təhsil haqqı müqavilə yolu ilə müəyyən edilir.**

**Ünvan:** Bakı şəhəri, İstiqlaliyyət küç. 27
**Tel:** (+99412) 492 61 63; 492 74 18 (14)
**Faks:** (+99412) 492 67 01
**e-mail:** www.wu.edu.az


## Təbrik



Mələküzlü körpə Mələk balanın bir yaşı tamam olur. Bu münasibətlə babası Hüseyn, nənəsi Məlahət, əmiləri Vüsal, Amil onu təbrik edir, valideynlərinin və Vətəninin ümidlərini doğruldan xoşbəxt övlad olmasını arzulayırlar.

Mətbuat Şurasının sədri Əflatun Amaşov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Şəmsəddin Hacıyevə yaxın qohumu
**TAMELLA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2425, sifariş:3307
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.



Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.